# ELMİ TƏDQİQAT

Beynəlxalq onlayn elmi jurnal

# SCIENTIFIC RESEARCH

International online scientific journal

aem.az

AEM

e-ISSN: 2789-6919

## ELM VƏ TƏHSİLİN ƏSASLARI
## VI BEYNƏLXALQ ELMİ KONFRANS

## FUNDAMENTALS OF SCIENCE AND EDUCATION
## VI INTERNATIONAL SCIENTIFIC CONFERENCE

09.02.2024

# ELMİ TƏDQİQAT
**Beynəlxalq onlayn elmi jurnal**
**İmpakt Faktor: 1.172**

---

## ELM VƏ TƏHSİLİN ƏSASLARI

## VI BEYNƏLXALQ ELMİ KONFRANS

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

# SCIENTIFIC RESEARCH
**International online scientific journal**
**Impact Factor: 1.172**

---

## FUNDAMENTALS OF SCIENCE AND EDUCATION

## VI INTERNATIONAL SCIENTIFIC CONFERENCE

**(09.02.2024)**

**Bakı – Baku**
**2024**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Reyestr № 4336

The journal is included
in the register of Press
editions of the Ministry
of Justice of the Republic
of Azerbaijan on
01.03.2021.
Registration № 4336

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Mətbuat Avenue, 529,
“Azerbaijan” Publish
House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**e-mail:**
bek.tedqiqat@aem.az

## Beynəlxalq indekslər / International indices

**e-ISSN: 2789-6919**
**DOI: 10. 36719**

# TƏŞKİLAT KOMİTƏSİ


**Sədr**

**Prof.dr. Hacı HƏSƏNOV**, AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu/ Azərbaycan

**Sədr müavinləri**

**Mübariz HÜSEYİNOV**, "Elmi Tədqiqat" beynəlxalq onlayn elmi jurnalın baş redaktoru / Azərbaycan

**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa

**Məsul katib**

**Assos.Prof.Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

## ÜZVLƏR

**Prof.Dr. Qəzənfər KAZIMOV**, AMEA, Nəsimi adına Dilçilik İnstitutu/ Azərbaycan
**Prof.Dr. Şəhla SƏMƏDOVA**, Bakı Dövlət Universiteti/ Azərbaycan
**Prof.Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin İqor Sikorski adına Kiyev Politexnik İnstitutu/ Ukrayna
**Prof.Dr. Yaqut HACIYEVA**, Azərbaycan Tibb Universiteti/ Azərbaycan
**Prof.Dr. Yelena ŞİŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti/ Rusiya
**Prof.Dr. Rafiq ÇOBANOV**, Azərbaycan Tibb Universiteti/ Azərbaycan
**Prof.Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti/ Türkiyə
**Prof.Dr. İlham ŞAHMURADOV**, AMEA, Botanika İnstitutu/ Azərbaycan
**Prof.Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti/ Gürcüstan
**Prof.Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti/ Azərbaycan
**Prof.Dr. Onur URAL**, Selcuk Universiteti, Türkiyə
**Prof.Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti/ Azərbaycan
**Prof.Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti/ Rusiya
**Prof.Dr. Fəxrəddin YUSUBOV**, Azərbaycan Texniki Universiteti/ Azərbaycan
**Prof.Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti/ Türkiyə
**Prof.Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti/ Azərbaycan
**Prof.Dr. Elçin İBRAHİMOV**, Azərbaycan Dillər Universiteti, Azərbaycan
**Prof.Dr. Şahlar BABAYEV,** Azərbaycan Dövlət Aqrar Universiteti/ Azərbaycan
**Assos.Prof.Dr. Könül HƏSƏNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti/ Azərbaycan
**Assos.Prof.Dr. Elnurə ƏZİZOVA**, Azərbaycan İlahiyyat İnstitutu/ Azərbaycan
**Assos.Prof.Dr. Gülsanam NOROVA**, Navoiy Dövlət Pedaqogika İnstitutu/ Özbəkistan
**Assos.Prof.Dr. İlkin ƏLİMURADOV**, Azərbaycan İlahiyyat İnstitutu/ Azərbaycan
**Assos.Prof.Dr. İradə KƏRİMOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti/ Azərbaycan
**Assos.Prof.Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti/ Azərbaycan
**Assos.Prof.Dr. Sevinc HƏMZƏYEVA**, Sumqayıt Dövlət Universiteti/ Azərbaycan
**Assos.Prof.Dr. Əlöysəd ƏSGƏROV**, Azərbaycan Dövlət Aqrar Universiteti/ Azərbaycan
**Assos.Prof.Dr. Rəşad HÜSEYNOV**, Xəzər Universiteti/ Azərbaycan
**Assos.Prof.Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti/ Azərbaycan

**Assos.Prof.Dr. Asif MANAFOV**, AMEA, Zoologiya İnstitutu/ Azərbaycan
**Assos.Prof.Dr. Ali AZQANİ**, Tayler Texas Universiteti/ ABŞ
**Assos.Prof.Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu/ Azərbaycan
**Assos.Prof.Dr. Elnarə MEHBALIYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti/ Azərbaycan
**Assos.Prof.Dr. Qəzənfər CƏFƏROV**, AR ETN, Kataliz və Qeyri-üzvi Kimya İnstitutu/ Azərbaycan
**Assos.Prof.Dr. Aliyə RZAYEVA**, AR ETN, Təbii Ehtiyatlar İnstitutu/ Azərbaycan
**Assos.Prof.Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti/ Ukrayna
**Assos.Prof.Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyat Universiteti/ Özbəkistan
**Assos.Prof.Dr. Toğrul XƏLİLOV,** AMEA, Naxçıvan bölməsi
**PhD Aygün BAYRAMOVA**, Milli Aerokosmik Agentliyi, Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu/ Azərbaycan

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Prof.Dr. Haji HASANOV**, ANAS Institute of History named after A.A.Bakikhanov / Azerbaijan

### Deputy chairmen

**Mubariz HUSEYINOV**, Editor -in-chief of international online journal "Scientific Research"/ Azerbaijan

**Prof.Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University/ Poland

### Executive secretary

**Assos. Prof.Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University/ Azerbaijan

## MEMBERS

**Prof.Dr. Gazanfar KAZIMOV**, ANAS Institute of Linguistics named after Nasimi/ Azerbaijan
**Prof.Dr. Shahla SAMADOVA**, Baku State University/ Azerbaijan
**Prof.Dr. Irina KREYDICH**, National Technical University of Ukraine "Igor Sikorsky Kyiv Polytechnic Institute" / Ukraine
**Prof.Dr. Yagut HAJIYEVA**, Azerbaijan Medical University/ Azerbaijan
**Prof.Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof.Dr. Rafig CHOBANOV**, Azerbaijan Medical University/ Azerbaijan
**Prof.Dr. Jihan OZDEMIR**, Bilecik Sheykh Edabali University/ Turkey
**Prof.Dr. Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan

**Prof.Dr. Iya ZUMBULADZE**, Kutaisi State University/ Georgia
**Prof.Dr. Eldar MASIMOV**, Baku State University/ Azerbaijan
**Prof.Dr. Onur URAL**, Selcuk University, Turkey
**Prof.Dr. Maarif JAFAROV**, Baku State University/ Azerbaijan
**Prof.Dr. Nikolay BRIKO**, First Moscow State Medical University named after I.M.Sechenov/ Russia
**Prof.Dr. Fakhraddin YUSUBOV**, Azerbaijan Technical University/ Azerbaijan
**Prof.Dr. Mehmet UNLU**, Marmara University/ Turkey
**Prof.Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University/ Azerbaijan
**Prof.Dr. Elchin IBRAHIMOV**, Azerbaijan University of Languages/ Azerbaijan
**Prof.Dr. Shahlar BABAYEV,** Azerbaijan State Agrarian University/ Azerbaijan
**Assos.Prof.Dr. Konul HASANOVA**, Azerbaijan State Pedagogical University/ Azerbaijan
**Assos.Prof.Dr. Elnura AZIZOVA**, Azerbaijan Institute of Theology/ Azerbaijan
**Assos.Prof.Dr. Gulsanam NOROVA**, Navoi State Pedagogica Institute/ Uzbekistan
**Assos.Prof.Dr. Ilkin ALIMURADOV**, Azerbaijan Institute of Theology/ Azerbaijan
**Assos.Prof.Dr. Irada KARIMOVA**, Azerbaijan State Pedagogical University/ Azerbaijan
**Assos.Prof.Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics/ Azerbaijan
**Assos.Prof.Dr. Sevinj HAMZAYEVA**, Sumgayit State University / Azerbaijan
**Assos.Prof.Dr. Aloysad ASGAROV**, Azerbaijan State Agrarian University/ Azerbaijan
**Assos.Prof.Dr. Rashad HUSEYNOV**, Khazar University/ Azerbaijan
**Assos.Prof.Dr. Garanfil GULIYEVA**, Baku State University/ Azerbaijan
**Assos.Prof.Dr. Asif MANAFOV**, Institute of Zoology and Dendrology of ANAS/ Azerbaijan
**Assos.Prof.Dr. Ali AZGANI**, University of Texas at Tayler / USA
**Assos.Prof.Dr. Shikar AHMADOV**, Azerbaijan Research Institute of Crop Husbandary/ Azerbaijan
**Assos.Prof.Dr. Elnara MEHBALIYEVA**, Azerbaijan State Pedagogical University/ Azerbaijan
**Assos.Prof.Dr. Gazanfar JAFAROV**, MSE of the Azerbaijan Republic , Institute of Catalysis and Inorganic Chemistry / Azerbaijan
**Assos.Prof.Dr. Aliya RZAYEVA**, MSE of the Azerbaijan Republic, Institute of Natural Resources / Azerbaijan
**Assos.Prof.Dr. Svetlana GORNOVSKAYA**, Belotserkova National Agrarian University/ Ukraine
**Assos.Prof.Dr. Elov BOTIR**, Alisher Navo'i Tashkent State Uzbek Language and Literature University/ Uzbekistan
**Assos.Prof.Dr. Toghrul KHALILOV,** Nakhchivan branch of ANAS
**PhD Aygun BAYRAMOVA,** Azerbaijan National Areospace Agency, Institute for Space Research of Natural Resources/ Azerbaijan

**Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans**
**9 fevral 2024 / 6-9**
**Fundamentals of Science and Education VI International Scientific Conference**
**9 february 2024 / 6-9**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

**Könül Mədədzadə**
Sumqayıt Dövlət Universiteti
fəlsəfə üzrə fəlsəfə doktoru
konulmededzade@mail.ru

## AZƏRBAYCANDA REGİONLARIN SOSİAL – İQTİSADİ İNKİŞAFINA ÜMUMİ BAXIŞ (2009-2013-CÜ İLLƏR)

***Açar sözlər**: social iqtisadi inkişaf, rayon, dövlət proqramı, layihələr*

***Keywords:**socio-economic development, region, state program, projects*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 aprel 2009-cu il fərmanına əsasən “Azərbaycan Respublikasının regionların 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı” təqdim edilmişdir. Bu proqramın əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, əhalinin həyat səviyyəsinin yüksəlməsi, iqtisadiyyatın diversifikasiyası, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafın təmin olunmasından ibarətdir. Bu proqramın həyata keçirilməsi ilə regionların paytaxt Bakı ilə fərqinin azaldılması və regionlardan paytaxta əhalinin köç etməsinin qarşısının alınmasına nail olmaq nəzərdə tutulmuşdur.

Ümumilikdə regionların sosial-iqtisadi inkişafı proqramı çərçivəsində iqtisadi rayonlar üzrə həyata keçirilən tədbirlər bu

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

istiqamətlərdə aparılmışdır: heyvandarlıq və kənd təsərrüfatı sahələrinin, bitkiçilik inkişafının dəstəklənməsi, sənaye istehsalı və emal sahələrinin genişləndirilməsi, rayonlarda sahə baytarlıq məntəqələrinin tikintisi, avtomobil yollarının təmiri, tikintisi, yenidən qurulması, yarımstansiyaların inşası, elektrik xətlərinin bərpası, hava xətlərinin tikintisi, 20 MVT olan kiçik su elektrik stansiyalarının tikintisi, Regional Planlaşdırma sxemlərinin yaradılması, Qarabağ müharibəsi əlillərinin və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması, çaylarda mühafizə tədbirlərinin aparılması, Şimal çaylarda su götürmə və nəqletmə qurğularının tikintisi, meliorasiya və irriqasiya, ekologiya və təbii sərvətlərdən istifadə tədbirləri, rayonların qaz təminatının yaxşılaşdırılması və yeni yaşayış massivlərinin qazla təmin olunması, səhiyyə müəssisələrinin tikilməsi və bərpası, kənd poçt şöbələrinin keyfiyyətinin yaxşılaşdırılması, su təchizatı və kanalizasiya sisteminin qurulması.

Regionların sosial-iqtisadi inkişafının təmin olunması tədbirlərinin icraçıları bilavasitə dövlət orqanları və nazirliklərdir.

Regionların sosial-iqtisadi inkişafını statistik rəqəmlərlə bu cür göstərə bilərik: ümumi ölkə üzrə və yaxud regionlar üzrə əhali artımı yüksəlməkdədir. Yeddi iqtisadi rayon üzrə əhali artımı 77 578 nəfər olmaqla, 2010-cu illə müqayisədə 17 faiz çox olmuşdur. Ümumilikdə qeyd olunan yeddi rayon üzrə artım ümumi ölkə üzrə əhalinin 2010-2011-ci illərə müvafiq olaraq 58 faiz və 63 faiz təşkil etmişdir. Əhalinin təbii artımı Lənkəran və Abşeronda qeydə alınmışdır. Qeyd etmək olar ki, əhalinin inkişafı eyni zamanda regionlarda qida, xidmət və digər məhsullara tələbatın da artması deməkdir.

Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramı həyata keçirilərkən 2009-2011-ci illərdə işsizlik göstəricisi azalmışdır. Orta hesabla 2009-2011-ci illərdə yeni açılmış iş

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

yerləri 2011-ci ildə 36980 yer təşkil edərək 2010-cu ilə açılan iş yerləri ilə müqayisədə 14 faiz artıq olmuşdur.

Açılan yeni iş yerlərinin tərkibində daimi iş yerləri 2009-2011-ci illərdə orta hesabla 60 faiz təşkil etmişdir.

2009-2011-ci illər ərzində aparılan araşdırma nəticəsinə məlum olmuşdur ki, adı çəkilən yeddi iqtisadi rayonda əsas kapitala qoyulmuş investisiyalar 40 faiz və 60 faiz artmışdır. Bütövlükdə investisiyaların cəmi 29 faizi bu regionlarda cəmlənmişdir. Onu da qeyd etməliyik ki, investisiyaların orta hesabla 81 faizi məhz tikinti quraşdırma işlərinə istiqamətlənmişdir.

2010-2011-ci illərdə müsbət artım tempinin olmasına baxmayaraq, sənaye məhsullarının 5-6 faizi bu regionlarda qeydə alınmış, 95-96 faizi Abşeron iqtisadi Rayonuna düşür.

Yeddi iqtisadi rayonda istehsal olunan heyvandarlıq məhsullarının inkişafı həmin illərdə müsbət trendlə artmışdır. Daha dəqiq desək, 2011-ci ildə heyvandarlıq məhsulları 2010-cu illə müqayisədə 16 faiz artmışdır. Kənd təsərrüfatı məhsullarının yığımı taxıl, pambıq, şəkər çuğunduru, günəbaxan, kartof, bostan məhsulları, üzüm, meyvə-giləmeyvədən əldə edilmişdir. 2010-cu ildə 2009-cu illə müqayisədə kənd təsərrüfatının yığımı 8 faiz azalmasına baxamyaraq 2011-ci ildə 2010-cu illə müqayisədə 14.2 faiz artmışdır. Ümumilikdə 7 iqtisadi rayon ümumi ölkənin kənd təsərrüfatlarının 96-97 faizini təşkil edir.

Nəticə. 2009-2013-cü illərdə həyata keçirilən regionların sosial-iqtisadi inkişaf proqramını bu cür yekun şərhləndirmək olar. Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı üzrə layihələrin icraçıları dövlət orqanları və nazirliklərdir. Reallaşdırılan layihələr bilavasitə infrastrukturun inkişafına, yeni yolların çəkilməsinə, binaların və digər tikintilərin aparılmasına, elektrik, su, qaz və rabitə təchizatının

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

yaxşılaşdırılmasına, təhsil və tibb müəssisələrinin bərpası və avadanlıqlarla təchiz olunmasına yönəldilmişdir. Bütün regionlar üzrə yeni açılmış iş yerlərinin sayı artım dinamikası və işsizliyin azaldılması ilə xarakterizə olunur. Eyni zamanda araşdırmada qeyd olunur ki, işsizlik üzrə statistik məlumatlar məhz status almış işsizləri əhatə etdiyi üçün işsizlik üzrə göstəricinin bir qədər də yüksək olduğunu ehtimal etmək olar. Nominal əmək haqqı ölkə və regionlar üzrə artmışdır. Bu artımın əsas inflyasiya amillərini nəzərə alsaq, real əmək haqqının artımında irəliləyiş olmuşdur. Məsələn, ölkə üzrə istehlak qiymətləri indeksi 2011-ci ildə 7.9 faiz olmuşdur.

İqtisadi rayonlarda sənaye məhsulunun artımı müsbət olsa da, ölkə üzrə çəkisi regionlarda dəyişilməmişdir. Əsas kapitala qoyulan investisiyaların həcmi sürətlə artmış və istifadəyə verilən əsas fondların miqdarı artmışdır. Tikinti quraşdırma işində investisiya xərcləri yüksək səviyyə təşkil etməkdədir. Məqsədə uyğundur ki, daha çox qeyri-istehsal sahələrinə istiqamətləndirilən xərclərlə müqayisədə sənaye sahələrinin yaradılması, iş və xidmət yerlərinin artımı sürətləndirilsin.

Araşdırma nəticəsində məlum olmuşdur ki, sənaye məhsullarının yarıya qədəri dövlət sektorunda istehsal olunur. Qeyri-dövlət sektorunun sənaye məhsulunda azalmasının davamı, yeni biznes sahələrinin yaradılması, biznes mühitinin zəifləməsinin qarşısının alınması məqsədilə tədbirlər irəli sürülməlidir.

Qeyd edə bilərik ki, bütün iqtisadi rayonlarda təbii artım müsbət olmuşdur, 2011-ci ildə yeddi iqtisadi rayonda təbii artım üzrə ölkənin 67 faizini təşkil etmişdir.

**Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans**
**9 fevral 2024 / 10-14**
**Fundamentals of Science and Education VI International Scientific Conference**
**9 february 2024 / 10-14**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

**Sevinc Sadıqova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
filologiya üzrə fəlsəfə doktoru
sevincsadigova@gmail.com
Orcid ID: 0000-0001-8720-3262

# AZƏRBAYCAN DİLİNİN QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İNKİŞAFINA DAİR DÖVLƏT SİYASƏTİNİN QƏRBİ AZƏRBAYCAN ŞİVƏLƏRİNİN TƏDQİQİNDƏ ROLU

***Açar sözlər:*** *Azərbaycan dili, dialekt, şivə, Qərbi Azərbaycan*
***Key words:*** *Azerbaijani language, dialect, accents, Western Azerbaijan*

Ümummilli lider Heydər Əliyev qeyd etmişdir ki, müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir. Sözsüz ki, tarixi keçmişimizin aynası doğma dilimizdir. Dilimizin öyrənilməsi, bütün parametrlər üzrə tədqiq olunaraq araşdırılması bu günün və gələcəyin ən vacib məsələlərindəndir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 aprel 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nda deyilir: "Bu gün Azərbaycan dilinin milli

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

dövlətçiliyin başlıca rəmzlərindən olaraq istifadəsi və əsaslı tədqiqi, ölkədə dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması üçün əlverişli zəmin yaradılmışdır. Eyni zamanda elm və texnikanın sürətlə inkişaf etdiyi hazırkı qloballaşma dövrü Azərbaycan dilinin zənginləşməsi və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsini tələb edir. Respublikada dil siyasətinin birmənalı şəkildə formalaşdırılması, ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəlməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycanın 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili kimi təsbiti, Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli 506 nömrəli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli 552 nömrəli fərmanları, eləcə də "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu və dil siyasəti sahəsində normativ hüquqi aktlar, həmçinin digər tədbirlər Azərbaycanda dilçilik sahəsinin hüquqi əsaslarını və icra mexanizmini müəyyən etmişdir... Eyni zamanda, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi və azərbaycançılıq məfkurəsi əsasında hərtərəfli inkişafı baxımından gənc nəslin ana dilinə sevgi və hörmət ruhunda tərbiyə olunması, ədəbi dilin normalarına ciddi surətdə əməl edilməsi, o cümlədən dilçilik elminin müxtəlif sahələri üzrə yüksəkixtisaslı kadrların hazırlanması dövrün tələbi olaraq qalır". Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

qayğısının artırılmasını, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsini, ölkədə dilçilik araşdırmalarının əsaslı surətdə yaxşılaşdırılmasını, dilçiliyin aparıcı istiqamətlərində fundamental və tətbiqi tədqiqatların inkişafına yönəldilmiş yaradıcılıq səylərinin birləşdirilməsini və dilçiliyin müasir cəmiyyətin aktual problemləri ilə əlaqələndirilməsini təmin etmək məqsədini daşıyan Dövlət Proqramının 6.3.5 bəndində **Azərbaycan dilinin müxtəlif dialekt və şivələrinin müasir dövrün tələblərinə uyğun olaraq öyrənilməsinin təmin edilməsi** nəzərdə tutulmuşdur.

Əlbəttə, Azərbaycan xalqının tarixini, mədəniyyətini, etnoqrafiyasını özündə əks etdirən dialekt və şivələrimizin materiallarının toplanması və tədqiqi ilə bağlı xeyli irimiqyaslı işlər görülmüşdü. Azərbaycan dialektologiyasının görkəmli nümayəndələri M.Şirəliyev, M.İslamov, R.Rüstəmov, K.Ramazanov, T.Hacıyev, B.Sadıqov, A.Hüseynov, B.Əhmədov, S.Mollazadə, M.Məmmədli və b. Azərbaycan dilinin ayrı-ayrı dialekt və şivələri ilə bağlı monoqrafiyalar yazmış, dissertasiyalar müdafiə etmişdilər. Azərbaycan Respublikasının müxtəlif bölgələrinə dialektoloji ekspedisiyalar təşkil edilmiş, kollektiv yaradıcılığın məhsulu olan monoqrafiyalar nəşr edilmiş, Azərbaycan dilinin dialektoloji lüğətinin, dialektoloji atlasının hazırlanması sahəsində də xeyli işlər görülmüşdü. Bütün bunlarla bərabər, bu "Dövlət Proqramı" Azərbaycan dilinin dialekt və şivələrinin öyrənilməsi işinə yenidən təkan verdi. Belə ki, Azərbaycan dilinin ayrı-ayrı dialekt və şivələrinin tədqiqi ilə bağlı aparılan araşdırmalar daha geniş miqyas aldı. Bunun bariz nümunəsi kimi, AMEA-nın dialektologiya şöbəsinin 2015-ci ildə "Naxçıvan dialektoloji atlası"nı, 2017-ci ildə "Azərbaycan dilinin Naxçıvan dialektoloji lüğəti"ni hazırlayaraq çap

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

etdirməsini, hal-hazırda isə “Qarabağ dialektoloji atlası”nın hazırlanmasını göstərmək olar. Azərbaycan dialektologiyasında dialekt və şivələrin tədqiqi sahəsində müsbət cəhətlərdən biri də ondan ibarətdir ki, Azərbaycan ərazisindəki dialekt və şivələr dağınıq halda deyil, məqsədyönlü şəkildə tədqiqata cəlb olunmuşdur. Lakin aparılmış bu tədqiqatlara baxmayaraq, dialektologiya sahəsində bu gün də həllini tapmamış problemlər mövcuddur ki, bu da yeni-yeni tədqiqatların aparılması zərurətini meydana çıxarır. Məhz bu baxımdan Qərbi Azərbaycan şivələrinin araşdırılması da xüsusi aktuallıq kəsb edir. Qərbi Azərbaycan əhalisi məlum hadisələrlə əlaqədar olaraq, kompakt yaşayışdan məhrum olmuş, respublikanın müxtəlif ərazilərinə səpələnmişlər. Bunun nəticəsində, onların şivə xüsusiyyətləri itir, getdikcə neytrallaşır. Bu səbəbi nəzərə alaraq, onların şivə xüsusiyyətlərinin müxtəlif aspektlərdən araşdırılması zəruridir. Qərbi Azərbaycan bütöv, vahid Azərbaycanın ayrılmaz tərkib hissəsidir və bu ərazilər tarixin ən qədim dövrlərindən azərbaycanlıların yaşayış məskəni olmuşdur. Qərbi Azərbaycanın köklü sakinlərinin Azərbaycan türkləri olduğu konkret mənbələr və faktlar əsasında sübuta yetirilmişdir. Azərbaycanın tarixi torpaqlarının bir hissəsi olan Qərbi Azərbaycanda hal-hazırda Ermənistan dövləti mövcuddur. Şovinist Ermənistan hökumətinin yürütdüyü mənfur siyasət nəticəsində hal-hazırda bu ərazidə bir nəfər də olsun azərbaycanlı qalmamışdır. 1828-ci ildə Rusiya ilə İran arasında bağlanmış Türkmənçay müqaviləsindən sonra ermənilər minilliklər ərzində azərbaycanlıların yaşadığı Qərbi Azərbaycan ərazisinə... köçürülməyə başlamış, Rusiya İmperiyasının dəstəyi ilə azərbaycanlılar öz dədə-baba torpaqlarından tədricən sıxışdırılıb çıxarılmış, mərhələlərlə doportasiyaya məruz qalmışlar.

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

Azərbaycan dilinin qərb, cənub, qismən də şərq dialekt və şivələrinin əlamətlərini özündə birləşdirən Qərbi Azərbaycan şivələri maraqlı fonetik və qrammatik xüsusiyyətlərə, zəngin leksik tərkibə malikdir. Yuxarıda qeyd etdiyimiz siyasi-tarixi şəraitlə əlaqədar olaraq müxtəlif ərazilərə səpələnmiş Qərbi Azərbaycan sakinlərinin şivə xüsusiyyətlərinin tədqiq edilməsinə xüsusi ehtiyac vardır və bu zərurət bir sıra dilçi alimlərimizin həmin şivələrlə bağlı araşdırmalar aparmasına səbəb olmuşdur. Belə ki Qərbi Azərbaycan şivələrindən bir qismi ayrı-ayrılıqda (Basarkeçər, Masis, Meğri, Dərələyəz, Çəmbərək, Karvansaray, Sisyan və b.) tədqiqata cəlb olunmuş, ümumilikdə bütün Qərbi Azərbaycan şivələrinin leksikası da araşdırılmışdır. Bu araşdırmaların müəyyən bir qismi sovet dövründə aparılsa da, müstəqillik dövründə bu sahəyə olan maraq xeyli artmışdır. Cənab Prezidentin "Dövlət Proqramı"nı təsdiq etməsindən sonra Azərbaycan dilinin digər dialekt və şivələrinin öyrənilməsi ilə yanaşı, Qərbi Azərbaycan şivələrinin öyrənilməsinin də yeni mərhələsi başlandı. Qərbi Azərbaycan şivələrinin tədqiq olunması sahəsində müəyyən işlər görülmüşdür, lakin bütün bu sadalananlar kifayət deyildir. Çünki Qərbi Azərbaycan şivələrinin öyrənilməli, tədqiqata cəlb olunmalı xeyli cəhətləri vardır ki, bunların tədqiq edilməsi, araşdırılması zəruridir.

Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans
9 fevral 2024 / 15-18
Fundamentals of Science and Education VI International Scientific Conference
9 february 2024 / 15-18
DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

**Sevda İsmayılova**
Bakı Dövlət Universiteti,
tarix üzrə fəlsəfə doktoru
sevdaismayilova@rambler.ru

# 1930-CU İLLƏRİN REPRESSİYALARI VƏ ALİ MƏKTƏB TƏLƏBƏLƏRİ

***Açar sözlər:*** *00447 saylı əmr, repressiya, ali məktəblər, tələbələr, sosial mənşə, əks-inqilabçı-trotskiçi*

***Keywords:*** *order No00447, repression, universities, students, social origin, counter-revolutionary-Trotskyist*

Xalq Daxili İşlər Komissarı Yejovun 1937-ci il iyulun 30-da imzaladığı 00447 saylı əmrdə repressiya əməliyyatının təşkili və keçirilməsi zamanı rəhbər tutulan prinsiplər içində repressiya edilənlərə qarşı tədbirlər də göstərilirdi. Belə ki, birinci kateqoriyaya aid edilən elementlərin dərhal ifşa edilərək, "üçlük" işlərinə baxdıqdan sonra güllələnmələri, ikinci kateqoriyaya aid edilən az fəal düşmən ünsürlərin isə "üçlüyün" qərarı ilə həbs edilib 8-10 il müddətinə düşərgəyə, daha sosial təhlükəli olanların həmin müddətdə həbsxanaya göndərilmələri göstərilirdi (Zeynalov, 2017:275-276). Repressiyaya məruz qalanlar içərisində Azərbaycan ziyalıları, elm, təhsil, ədəbiyyat, mədəniyyət, incəsənət xadimləri, rəhbər partiya və sovet işçiləri olduğu kimi, tələbələr də var idi. Onlar sosial mənşələrini gizlətmək, əksinqilabçı-trotskiçi fəaliyyət, partiya və hökumət rəhbərinə qarşı terror aktları hazırlanması, hakimiyyət çevrilişi, casusluq, və s. kimi ittihamlarla azadlıqdan məhrum edilmiş, müxtəlif cəzalara məhkum edilmişdilər. O dövrdə BDU-nun 60-a qədər professor, elmi işçi və müəllimi, 20-yə qədər tələbəsi təzyiqlərə məruz qalıb,

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

güllələnib (A.Rzayev, B.Əziz, 2014:27).1930-cu illərdə Dövlət Siyasi İdarəsi və Xalq Daxili İşlər Komissarlığı "şübhəli" tələbələrin keçmişini araşdırır, anket sorğularını təhrif etdiklərinə və digər başqa səbəblərə görə onları günahlandırır və cəzalandırırdı. Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılan sənədlərdən 1934-cü il 27 dekabr tarixində ADU rektoru və məxfi hissə rəisi tərəfindən tələbə Lətif Əfəndiyev haqqında, atasının banditizmdə iştiraka görə güllələndiyi halda, bunu gizlədib, atasının yaşadığını göstərdiyinə görə, XDİK idarəsinə sorğu verildiyi görünür (ARDA: 5). Tarix fakültəsinin tələbəsi Qurban Qurbanov siyasi məhbus olan qohumu ilə əlaqəsini, öz sosial mənşəyini anketində gizlətmiş, molla oğlu olduğu halda, atasını müəllim kimi qeyd etmişdi. Universitet partiya komitəsinin 1935-ci il 10 iyun tarixli iclası Q.Qurbanovun komsomol sıralarından çıxarılmasını, işi üzrə materialların XDİK-ə göndərilməsini qərara almışdı (ARDA: 102).1936-cı ildə Hazırlıq kurslarında təhsil alan Aleksandr Stukalovun Arxangelskə sürgün edilmiş trotskiçinin oğlu olması aşkarlanmışdı (ARDA: 15). Belə məzmunlu işlərin sayı o qədər artmışdı ki, ÜİK(b)P-nin Bakı Komitəsi və AK(b)P MK Xalq Təhsil Komissarlığına "Ali təhsil müəssisələri və texnikumlardan sosial mənşəyinə görə xaric edilmişlərin ərizələrinə baxılması üçün komissiya yaradılması haqda" qərar qəbul etmişdi (ARDA: 2). ADU partiya komitəsinin katibi Mnasakanovun AK(b)P Voroşilov RK ikinci katibinə təqdimatında (IV.1936) tarix fakültəsinin I kurs tələbəsi Q.Sadıqovun öz tələbə yoldaşı Sərvər Bədəlbəyli haqda məlumatı əks olunub.Məlumata görə S.Bədəlbəyli tələbələr arasında Trotskinin fikirlərini təbliğ etmiş, əksinqilabçı-millətçi çıxışlar etmişdir. Millətçi təbliğat aparan II kurs tələbəsi Qaziyevlə daim əlaqədə olmuşdur (ARDA:1-2). Nəticədə AK(b)P katibi M.Bağırov tərəfindən ADU rektoru

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

Həsənbəyova işdən çıxarılma təhdidi ilə xəbərdarlıq edilmiş, professor-müəllim heyətinin tərkibinə yenidən baxılması, tələbələr arasında ideya-siyasi və beynəlmiləl tərbiyəni gücləndirmək tapşırılmış, tarix fakültəsinin dekan müavini Baba Əsgərov tutduğu vəzifədən kənarlaşdırılmışdı (ARDA: 21-21 arx.).

1928-ci ildə Türkiyədə latın əlifbası qəbul edildikdən sonra sovet hakimiyyəti ruslaşdırma siyasətini sürətləndimək, türk dünyasının mənəvi birliyini parçalamaq üçün Azərbaycan yazısının latin əlifbasından rus əlifbasına keçirilməsi haqqında 1939-cu il iyulun 11-də qərar qəbul etdi. XDİK DTİ-nin rus əlifbasına keçirilməsinə qarşı çıxanlar haqqında tərtib etdiyi 10 yanvar 1939-cu il tarixli xüsusi məxvi məlumatından göründüyü kimi tələbələr də bu qərara etiraz etmişdilər. Tarix müəllimi və Azərbaycan Pedaqoji İnstitutunun tələbəsi Məmmədov Süleyman bildirmişdi ki, rus əlifbasına keçid Azərbaycan xalqının ruslaşdırılması deməkdir. Tezya da gec ruslaşdırma siyasətinə qarşı çıxış edən adamlar tapılacaq, onda yenə də kütləvi həbslər başlayacaq (ARPİİİSSA: 149). Tələbə Nurəddin Kazımov göstərirdi ki, Azərbaycan əlifbamızı pis olduğuna görə yox, biz milliyyətçi olmadığımıza görə dəyişirlər. Gürcüstan və Ermənistanda isə onların əlifbasını heç vaxt rus əlifbasına dəyişməzlər, çünki onlar millətçidirlər və orada yazı ana dilindədir (ARPİİİSSA: 141). Sovet təhlükəsizlik idarələri bu kimi ifadələri gələcəkdə hökumət orqanlarının təzyiq və repressiyalarına işarə, əks-inqilabçı, milliyyətçi, milli qarşıdurma yaradan antisovet çıxışlar kimi qiymətləndirirdi.

AXC dövründə də Avropaya təhsil almağa göndərilmiş və Azərbaycana dönmüş tələbələrin çoxu 1930-cu illərdə Azərbaycanın müstəqilliyinin bərpa edilməsi, casusluq ittihamı ilə repressiyaya uğradılar. Həbs olunanların çoxu 1956-cı ildə

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

olan bəraət dövrünə qədər yaşamadılar. Beləliklə, 1930-cu illərin repressiyaları Azərbaycanın milli-mənəvi dəyərlərinə böyük zərbə vurdu.

## Ədəbiyyat

1. Zeynalov,( 2017). Totalitar Sovet Cəmiyyəti: Tarixin ibrət dərsləri-Azərbaycan SSR XX əsrin 20-50-ci illərində.Bakı: "Ləman nəşriyyat poliqrafiya" MMC, 720
2. A.Rzayev, B.Əziz , (2014, №4). BDU tarixinin öyrənilməmiş səhifələri. Tarix və onun problemləri.Bakı: Adiloğlu, 27-32
3. ARDA, f. 1640, siy.2, iş 2
4. ARDA, f. 1640, siy.4, iş 4
5. 5.ARDA, f. 1640, siy.2, iş 8
6. 6.ARDA, f. 1640, siy.2, iş 9
7. 7.ARDA,f. 1640, siy.2, iş 9
8. ARDA, f. 1640, siy.2, iş 9
9. ARPİİİSSA, f.1, siy.22, iş 345
10. ARPİİİSSA, f.1, siy.22, iş 345

**Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans**
**9 fevral 2024 / 19-23**
**Fundamentals of Science and Education VI International Scientific Conference**
**9 february 2024 / 19-23**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

**Zəhra Seyidqızı**
Naxçıvan Dövlət Universiteti
zehraseyidqizi@ndu.edu.az

# ANA DİLİM

***Açarsözlər:****Azərbaycan dili,ana dili, dilimizin qədimliyi, dilin qayda-qanunları, Qafqazın anlaşma dili, tatar dili, türk dili, dil haqqında fərmanlar*

***Keywords:****Azerbaijan language,mother tongue,history of our lang, rules of our lang,Caucasus common lang,tatar lang, turkic lang, decrees on language*

“Ana dili! Nə qədər rəfiq, nə qədər ali, hissiyyatı qəlbiylə oyandıran kəlmə! Nə qədər möhtəşəm, müqəddəs, nə qədər əzəmətli bir qüvvə! Ana dili! Bir dil ki, mehriban bir vücud, öz məhəbbətini, şəfqəti-madəranəsini sənə o dildə bəyan edibdir. Bir dil ki sən hələ beşikdə ikən bir layla şəklində öz ahəng və lətafətini sənə eşitdirib, ruhun ən dərin guşələrində nəqş bağlayıbdır. Bir dil ki həyat və kainat haqqında ilk əvvəl o dil sayəsində bir fikir hasil edibsən, cisim və ruhun möhtac olduğunu məvadi o dildə tələb eləyibsən…”.

Böyük şəxsiyyət, ictimai-siyasi dövlət xadimi, Azərbaycan yazıçısı və dramaturqu N.Nərimanovun belə gözəl tərif verdiyi ana dilimizdən - türk dillərindən, oğuz dilindən bu günlərdə Azərbaycan dili adlandırdığımız bu möcüzədən çox danışılıb. Ona işıqdan doğulan adamların müqəddəs dili deyiblər. Çünki bu dil mənsub olduğu millətin, xalqın ruhunu, mənliyini, milli mənəvi dəyərlərini yaşadıb, onu yad ünsürlərdən qoruyub. Dilini dəyişərək kökündən ayrı düşən əslindən, kimliyindən qopan manqurtlara sığınacaq olmayıb bu dil. Öz təmizliyini zamanın burulğanlarında qoruyub saxlaya bilib. Alpların,

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

ərənlərin qəhrəmanlıq dili adlandırıblar onu. Qanlı döyüşlərdən əvvəl bu dildə oxunan qələbə çağırışlı, döyüş əzmli qəhrəmanlıq nəğmələri bu ərənlərin qalibiyyətinin az qala yarısı hesab olunub. Bayrağının işığına dünyanı toplayanların fateh dili adlandırılıb, dünyanı dolaşan mühacirlərin “vətən dili” deyiblər.




**Şəkil1. “Ana dili müəllimi” abidəsi (Xaçmaz şəhəri Çənlibel istirahət parkı).**

Xalqımız Nəsimi, Füzulinin poeziya dünyasını, Mirzə Fətəli kəlamını, Mirzə Cəlilin və Sabirin duzlu sözünü, Üzeyir və S.Vurğunun qanadlı ilhamını dünyaya tanıtdıran bir dilə məxsusdur. Mənsub olduğu xalq və onun yurdu kimi yadelli təsirlərə məruz qalan, zaman keçdikcə şeir, sənət və elm dili kimi şöhrət qazanan bu dil zamanın dolanbac sınaqlarından çıxaraq inkişaf etmiş ədəbi dillərdən birinə çevrilmişdir.

Azərbaycan dili hələ qədimdən öz hüdudlarını aşaraq bir sıra ölkələrə yayılmış, Lermontovun dediyi kimi Asiya və Avropanın Fransız dili qədər geniş anlaşma vasitəsi olmuşdur.

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

Bu dilin qədimliyi, müxtəlif xalqlar arasında işlənməyi, poetik imkanları, şirinliyi əcnəbi səyyahların, filoloqların, yazıçıların, hətta torpağımıza hücum edənlərin belə diqqətini cəlb etmişdir. Bir vaxtlar Roma sərkərdəsi Qney Pompey Qafqaza yürüşü zamanı albanlar tərəfindən ona yazılan məktubu dinləyəndə barbar kimi təsəvvür etdiyi bir millətin dilinə, mədəniyyətinə çox təəccüb etmişdir.

Saray dili səviyyəsində işlənə biləcək qədər yüksək mədəni səviyyəyə, fonetik, qrammatik qayda-qanuna, gözəl nitqə malik olan dilimiz Şah İsmayıl Xətainin qurduğu vahid Azərbaycan dövlətində dövlət dilinə, şeir-sənət dilinə çevrilmişdir. Əslində Xətai atdığı bu addımla dövlətlər arasında mükəmməl bir dili olan böyük bir millətin varlığını bəyan etdi, doğma dilinə olan sevgisini ortaya qoydu. Və bu qeyrəti ilə də dilimizin bədii-mədəni inkişafında mühüm rol oynadı.

Dilimiz hələ qədimdən çoxsaylı xalqların yurdu kimi tanınan Qafqazda ortaq anlaşma dili kimi istifadə olunmuşdur. XIX əsrdə Peterburq Universitetinin müəllimi L.Budaqov Azərbaycan dilini "bütün Qafqaz bölgəsində işlənən" dil adlandırmışdır. Çox maraqlıdır ki, hətta tarixən bizə düşmən olan ermənilər belə dilimizə hədsiz maraq göstərmişlər. Alman iqtisadçı alimi Qakstqauzen bu marağı öyrənmiş və ona məlum olmuşdur ki, ermənilər erməni dilində yox, tatar danışıq dilində mahnı qoşurlar. Ona görə ki, bu dil poeziya dilidir. Ən məşhur erməni şairləri öz əsərlərini daha geniş yaymaq üçün həmişə tatar dilində danışırlar.

Dilimizə Avropada da böyük maraq göstərilib. İngiltərədə Oksford Universitetinin professoru Limpson, Almaniyada Hans Peter Əhməd Şmide kimi alimlər tərəfindən tədqiq olunan dilimiz F.Köçərlinin dediyi kimi "bütün müsəlman şərqinin ən gözəl və ən çox işlənən bir dili kimi qiymətləndirilmişdir". Demək Azərbaycan dili böyük bir gəminin sükanı kimi qonşu

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

xalqların dilinə mayak olaraq işıq saçmışdır. Dil hər bir dövlətin atributlarından biridir. Konstitusiya-mızın 21-ci maddəsində yazılır: "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir". Dilimiz tarixən türk dili adı ilə tanınmışdır. Şimali Azərbaycanın Rusiyaya birləşdirilməsindən sonra soykökümüzü unutdurmaq, bizi türk dünyasından ayırmaq məqsədilə dilimizi tatar dili, Azərbaycan dili, tatar dilinin Qafqaz ləhcəsi və s. adlandırmışlar.

Respublikamızda dilimizlə bağlı müxtəlif fərmanlar qəbul olunub. 1919-cu ildə Azərbaycan Respublikasının qərarı ilə dilimiz türk dili adlandırılmışdır. 1936-cı ildə SSRİ konstitusiyasında dilimiz Azərbaycan dili, xalqımız azərbaycanlı adlandırıldı. 1993-cü il yanvar ayında Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə dilimiz yenidən türk dili kimi qeyd olundu. Nəhayət 1996-cı il 12 Noyabr səsverməsində dilimiz konstitusiyada Azərbaycan dili adlandırıldı. Ümummilli lider Heydər Əliyev dilimizin dövlət dili kimi yaşamasında, onun saflığının qorunmasında böyük işlər görmüşdür. Hazırda Azərbaycan dilində dünyada 50 milyondan çox azərbaycanlı danışır (1).

Müasir Azərbaycan dili dünyanın inkişaf etmiş dillərindən biri kimi mənsub olduğu xalqın yaranışından bu günədək mənəvi dünyasını mətin addımlarla işıqlı gələcəyə doğru aparmağa layiq olan bir dildir. Qəlbi vətən eşqi ilə tüğyan edən Xəlil Rza Ulutürkün dediyi kimi:

Polad körpüm,
Qılıncımdır,
Günəşimdir,
Mənim dilim!

Zaman ötür illər dəyişir. Zamanın həqiqət meyarlı günəşinin şəfəqləri altında bərq vuraraq qeyrət dilimiz, şücaət dilimiz adlandırdığımız Azərbaycan dilimiz neçə-neçə nəsillərə

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

doğma olacaq, dünənimizlə bugünümüz və gələcəyimiz arasında bir körpü quracaq, işıqlı sabaha mənsub olduğu millətlə birgə addımlayacaqdər.

## Ədəbiyyat

1.https://modern.az/az/news/240033

**Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans**
**9 fevral 2024 / 24-27**
**Fundamentals of Science and Education VI International Scientific Conference**
**9 february 2024 / 24-27**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

**Təhminə Ataşlı**
Bakı Dövlət Universiteti
doktorant
tehmineatashli@gmail.com

# XI-XIV ƏSR MƏNBƏLƏRİNDƏ OĞUZLARA AİD EDİLƏN SÖZLƏR AZƏRBAYCAN VƏ TÜRK DİLLƏRİNDƏ

***Açar sözlər:*** *lüğət, oğuz, Azərbaycan dili, türk dili, türkoloji dilçilik*
***Keywords:*** *dictionary, oghuz, Azerbaijani language, turkish language, turkological linguistics*

XI-XIV əsr mənbələri kimi Mahmud Kaşğarinin "Divanü-luğat it-türk", Əbu Həyyanın "Kitab əl-idrak li-lisan əl-ətrak", İbn Mühənnanın "Hilyətül-insan və həlbətül-lisan", müəllifi məlum olmayan "Ət-töhfət üz-zəkiyyə fil-lüğət it-türkiyyə" və b. göstərmək olar, bunlarda oğuzlara aid edilən xeyli miqdarda sözlər vardır ki, həmin sözlərin əksəriyyəti müasir Azərbaycan və türk dillərində ədəbi dil səviyyəsində, yaxud dialektal səviyyədə işlənməkdədir.

Mahmud Kaşğarinin "Divanü luğat it-türk" əsəri türk dillərinin leksik, fonetik və morfoloji xüsusiyyətlərinə həsr olunmuşdur. XX əsrin 20-ci illərinə qədər əlyazma şəklində olan bu əsər ilk dəfə 1915-1917-ci illərdə üç cilddə Kilisli Rüfət tərəfindən Türkiyədə çap olunmuşdur. Lüğəti Karl Brokelman alman dilinə tərcümə edərək 1928-ci ildə, Besim Atalay türk dilinə tərcümə edərək 1939-1941-ci illərdə, Saleh Mütəllibov özbək dilinə tərcümə edərək 19601963-cü ilərdə nəşr etdirmişlər. Azərbaycan dilində Ramiz Əskər tərəfindən 2006-cı ildə dörd cilddə nəşr etdirilmişdir.

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

Əsər həcmcə çox böyükdür, burada müxtəlif türk dillərinə aid 9000-ə yaxın söz və söz birləşməsi əhatə olunmuşdur. Əsər Xaqaniyyə türkcəsində yazılmışdır, tez-tez digər türkcələrlə, xüsusən də oğuz türkcəsi ilə müqayisələr aparılmışdır.

Əbu Həyyanın "Kitab əl-idrak li-lisan əl-ətrak" əsərini 19 yanvar 1313-cü ildə Qahirədə Salihiyyə mədrəsəsində bitirmişdir, əsərin bizə iki əlyazması məlumdur, hər iki nüsxə İstambulda kitabxanalarda qorunur. İlk dəfə 1891-ci ildə Mustafa bəy tərəfindən İstambulda, daha sonra yenə orada, 1931-ci ildə Əhməd Cəfəroğlu tərəfindən çap etdirilmişdir. Azərbaycanda 1992-ci ildə Ziya Bünyadov tərəfindən tərcümə edilərək çap etdirilmişdir. Əsər üç hissədən ibarətdir, birinci hissə 2300 sözü əhatə edən türkcə-ərəbcə lüğətdir, ikinci hissədə türkcənin morfologiyasının, üçüncü hissədə isə sintaksisinin şərhi verilir. Əsərin lüğət hissəsi sübut edir ki, Əbu Həyyan öz dövrünün türk dillərinin hamısını praktik cəhətdən bilirdi, lüğətin müxtəlif yerlərində sözlərin qarşısında qıpçaq, oğuz sözləri ilə yanaşı, bu və ya digər sözün tatar, bulqar, toqsuba, uyqur, türküstan dillərində necə işləndiyini və ya onun fonetik variantı da verilir.

İbn Mühənnanın "Hilyətül-insan və həlbətül-lisan" əsərinin ilk beş nüsxəsi elm aləminə məlum olarkən, müəllifin və əsərin adı naməlum idi. Lüğəti ilk dəfə rus türkoloq-alim Platon M.Melioranski 1900-cü ildə Sankt-Peterburqda "Ərəb filoloqu türk dili haqqında" adı ilə nəşr etmişdir. Lüğətin ilk nüsxəsi Oksfordda Bodleyan kitabxanasında "Kitabi-tərcümani-farsi və türki və moğoli" (Fars, türk və moğol dillərindən tərcümə kitabı) adı ilə qeydə alındığı üçün P.M.Melioranski də lüğəti həmin adla tanıtmışdır. Bir müddət sonra İstanbulda "Muzeyi-Humayun" kitabxanasında lüğətin daha bir nüsxəsi tapılır ki, burada müəllifin adı – Seyid Cəmaləddin ibn Mühənna və əsərin adı – "Hilyətül-insan və həlbətül-lisan" ("İnsanın bəzəyi

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

və dilin sahəsi”) qeyd olunmuşdu. Lüğəti bu adla çap etdirən həmin muzeyin direktoru Xəlil bəy olur. O, 1909-cu ildə İstanbulda dərc olunan “Türk dərnəyi” dərgisinin ilk nömrəsindən başlayaraq bir neçə dəfəyə əlavə kimi lüğəti çap etdirir. 1921-ci ildə isə Kilisli Rüfət bu lüğəti tam şəkildə, kitab halında çap etdirərək elmi ictimaiyyətə təqdim edir, bununla da əsər tədqiqat obyektinə çevrilir. Tədqiqatçıların yekdil rəyinə əsasən, bu lüğət XIII əsrin sonu, XIV əsrin əvvəllərində indiki Azərbaycan ərazisində yazılmışdır. T.Hacıyev çoxsaylı nümunələri təhlil edərək belə bir qənaətə gəlmişdir ki, lüğətdə məhz Azərbaycan oğuzcası əks olunmuşdur.

“Ət-töhfət üz-zəkiyyə fil-lügət-it türkiyyə” əsərinin elm aləminə yalnız bir əlyazma nüsxəsi məlumdur, həmin əlyazma İstambulda Beyazit camesinin yanındakı “Veliddin Efendi Kütüphanesi”ndə 3092 nömrəsi ilə qeydiyyatdadır. Əlyazmanın əvvəlində və sonunda bütün vərəqlər yerindədir, vərəq əksikliyi yoxdur, 91 vərəqdən ibarətdir, hər vərəqin hər iki üzü yazılıdır, ortalama olaraq hər səhifədə 13 sətir, hər sətirdə 7 söz vardır, ərəbcə sözlər qara, türkcə sözlər qırmızı rəngli mürəkkəblə yazılmışdır. Əsərin yazılma tarixi dəqiq məlum deyildir, lakin birinci səhifənin yuxarısındakı 2 sətirlik qeydə əsasən, hicri 829-cu ildən əvvəl yazılmışdır. Əsər Misir ərazisində yazılmışdır, lakin müəllifi məlum deyildir.

İlk dəfə Fuat Köprülünün “Körösi Csoma Archivum” adlı macar jurnalının 15 iyun 1922-ci il tarixli I cild, III bölməsində dərc olunmuş məqaləsində Şeyyad Həmzənin bir mətnində olan sözləri izah etmək üçün lüğətin adının çəkildiyi qeyd edilir. 1940-cı ildə T.Halası Kun “İstanbul Kütüphanelerinde bulunan Kölemenler devri yazmaları ve bu devrin dili” adlı yazısında bu lüğətdən bəhs edərək onu çap etdirəcəyi barədə məlumat vermişdirsə də, “Ət-töhfət üz-zəkiyyə fil-lüğət-it

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

türkiyyə”ni ilk dəfə tərcümə edərək çap etdirən Bəsim Atalay olmuşdur.

XI-XIV əsrlərə aid olan bu yazılı abidələr həm Azərbaycan və türk dillərinin tarixi leksikasının, tarixi fonetika və qrammatikasının öyrənilməsi baxımından, həm də bu dillərin müasir vəziyyətinin müqayisəli şəkildə öyrənilməsi baxımından qiymətli mənbələrdir.

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

**Ayşən Qasımova – Mustafayeva**
Gəncə Dövlət Universiteti
dissertant
ayshenmuellimeqasimova@gmail.com

# QƏDİM TÜRK MƏNBƏLƏRİNDƏ LEKSİK PARALELİZM VƏ RAMİZ RÖVŞƏNİN NƏSR DİLİNDƏ ONLARIN POETİK MƏNZƏRƏSİ

***Açar sözlər***: *leksika, paralelizm, poetika, abidələr, nəsr*
***Keywords***: *vocabulary (lexical), parallelism, poetics, monument, prose*

Leksik paralelizm anlayışı ayrı-ayrı tədqiqat əsərlərində müxtəlif şəkildə anlaşılır. Bu anlayış bir çox hallarda sözlərin sinonimliyi, eyni zamanda variantı və ya məna paralelliyi kimi təqdim olunur. Məsələn, bibliya mətnlərində paralelizmin xarakterindən bəhs edərkən göstərilir ki, paralelizmin bu növü paralel konstruksiyalarda işlənərək ritm yaradır. Belə paralelizmlər paralel konstruksiyalarda sinonim, antonim xarakterli sözlərdən ibarət olur ki, onlar həm mənalarına görə, həm də paralel konstruksiyalarda işlənməsinə görə ritm və ahəngdarlıqla müşayiət edilir (Konitskaya, 2006: 171-180). Leksik paralelizm adı altında həmçinin başqa-başqa dillər arasındakı müştərək sözlərdən və onların bildirdikləri oxşar məna xüsusiyyətlərindən də bəhs edilir. Məsələn, sloven və rus dilindəki parallelizmlərə həsr olunmuş bir tədqiqat işində bilavasitə sözlərin leksik semantik xarakteri üzrə hər iki dil üçün müştərək olan *брат* (qardaş), *окно* (pəncərə), *сестра* (bacı), *зима* (qış), *вода* (su), *нога* (ayaq) tipli sözlərdən bəhs edilir (Desnitskiy, 2010: 265-266). Azərbaycan dilinin qədim leksikasına aid sözlərin oxşar və ya müştərək variantlarının

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

təhlilinə həsr olunmuş tədqiqatda da həmin tipli sözlər leksik paralellər kimi təqdim olunur (Abdullayeva, 2006: 72-76). Burada isə söhbət paralelizmin o növündən gedir ki, onlar paralel komponentlərin tərkibində işlənir, mənaca ya bir-birinə yaxın və ya əks anlayışları bildirərək ritm və ahəngdarlıq baxımından da poetik səciyyə daşıyır. Belə leksik paralelizmləri qədim mənbələrdə, eləcə də xalqın bədii təfəkkürünün məhsulu olan folklor nümunələrində müşahidə etmək olar. Müqayisə materialı kimi tədqiqata cəlb edilən Ramiz Rövşən nəsrində də qədim leksik poetik ənənələrin özünəməxsus müasir mənzərəsi nümayiş olunur.

Qədim yazılı mənbələrdə leksik paralelizmin poetikasının səciyyəvi cəhətlərini aşağıdakı kimi nümunələrdə təqdim etmək mümkündü.

Qədim yazılı abidələr nümunəsində Göytürk dilinə məxsus leksik paralelizmin poetiklik xüsusiyyətini əsas etibarı ilə aşağıdakı cümlələrdə müşahidə etmək olar:

*Paralel konstruksiyalarda leksik sinonimlərin iştirakı ilə poetizm yaradılması*

"*İl yemə il boltı, bodun yemə bodun boltı*" (*El (dövlət) də el oldu, xalq da xalq oldu*) [Tonyukuk abidəsi, Şərq tərəfi, 56, I daş]; "*Küntüz olurmatı, kızıl kanım tökti, kara tərim yügürti*" (*Gündüz oturmadı, qızıl qanımı tökdü, qara tərimi axıtdı*) [Tonyukuk abidəsi, Şərq tərəfi, 56, I daş]; "*Binip oplayu təqdi, bir ərik okuş urtı, eki ərik udışu sançdı*" (*Minib hücum etdi, bir döyüşçünü oxla vurdu, iki döyüşçünü təqib edib nizə ilə vurdu*) [Kül Tiqin abidəsi, Şərq tərəfi, 36].

Verilən birinci cümlədə *il* və *bodun* (el və xalq) sözləri paralel komponentlərdə sinonim kimi işlədilir, həmin sözlərin sinonim anlayışı paralel komponentlərdə təkrar olunan *boltı* (oldu) sözü ilə qabarıqlaşdırılır və sinonim sözlərin cümlədə simmetrik ahəngdarlıq yaratmasına xidmət edir. İkinci

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

cümlədəki *güntüz* sözü paralel komponentlərin simmetrik ahəngdarlığını təmin edən vasitə kimi təkrarlanmır. Ancaq burada *kızıl kan* və *kara tər* ifadələri sinonim kimi işlənərək paralel komponentlər daxilində məcazlaşma yaratmaq baxımından poetizmin canlandırılmasına təsir göstərir. Üçüncü cümlədə artıq paralel konstruksiyaların xəbər tərkibi təkrarlanmır. Lakin okın *urtı, udışu sançdı* tərkibləri vasitəsi ilə sinonimlik anlayışı qabarıq şəkildə canlandırılaraq poetizm yaradılmasını şərtləndirir.

*Paralel konstruksiyalarda eyni sözlər ortaq üzv kimi işlənərək təkrar işlənməsi ilə poetiklik yaradılması.* Qədim yazılı abidələrin dilində işlənən paralel konstruksiyalarda eyni sözlərin ortaq üzv kimi işlənməsi ilə paralel konstruksiyaların özünün poetikliyi canlandırılır. Bu xüsusiyyəti aşağıdakı nümunələrdə müşahidə etmək mümkündür:

"*Üküş atlığ ögrünçün yook, kobı atlığ korkınçın yook, -tir*" (*Çoxlu atlı olmağında təminat yox, az atlı (olmağın) qorxusu yox, - deyir*). [İrk Bitik abidəsi, 55, II]; "*Çıt anta tokıtdım; yay anta yayladım, yaka anta yakaladım*" (*Hasarı orada hördürdüm, yayı orada yayladım, ibadətimi orada elədim*) [Moyun Çur abidəsi, 20].

Verilən bu cümlələrdə ortaq üzvlər paralel komponentlərin poetikləşməsində aparıcı xarakter daşıyır. Bu mənada ki, paralel komponentlərdə əsas bədii informasiya yükü birbaşa ortaq üzv kimi təkrarlanan leksik vahidlərin üzərinədüşür. Belə ki, məsələn, birinci cümlənin paralel komponentlərində *yook* sözü iki dəfə təkrarlanır. Bu o deməkdir ki, paralel komponentlərdə bədii informasiya ikiqat canlandırılır. İkinci cümlədə isə *anta* sözü üç dəfə təkrarlanmaqla bədii informasiyanın uçqat canlanmasına və poetizmin də o dərəcədə ifadə olunmasına xidmət edir.

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

## Ədəbiyyat

1. Коницкая Е.М. (2014). Словенский язык в русскоязычной аудитории: Лексический параллелизм как источник интерференции.// Труды по русской и славянской литературы. Лингвистика. XVI Антропоцентризм в языке пречи. Тарту, с.261-272.
2. Десницкий А. S. (2010). Характер и функции параллелизма в библийских текстах. Диссертасия докт. филол.наук. Москва, Ин-ст востоковедения. РАН, 371 с.
3. Abdullayeva Q.A. (2006). Müasir Azərbaycan dilində arxaikləşmiş qədim türk leksik qatı.// Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, № 2, s. 72- 78.

**Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans**
**9 fevral 2024 / 32-33**
**Fundamentals of Science and Education VI International Scientific Conference**
**9 february 2024 / 32-33**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

**Aysel Abdullayeva**
Bakı Dövlət Universiteti
doktorant
aysel.nemetli1995@gmail.com

# DİLİMİZDƏ MƏKAN ANLAYIŞININ LEKSİK VASİTƏLƏRLƏ İFADƏSİ

***Açar sözlər***: *məkan, məna, məzmun,ifadə,yer, leksik yolla ifadə*
***Key words:****space, meaning, content, expression, location, lexical expression*

Məkan həcm və uzunluq ilə xarakterizə olunan materiyanın mövcudluğunun obyektiv formasıdır. Obyektləri məkansız təsəvvür etmək çətindir. Xalqların tarixi inkişafı, onların əmək fəaliyyəti, insanlar arasındakı ictimai münasibətlər, onların məişəti, adətləri və ənənələri, özlərinə məxsus xüsusi həyat şəraitləri dildəki ifadə vasitələrində izini qoyur. Azərbaycan dilində məkan anlayışını ifadə etmək üçün leksik vasitələr də dilimizdə çoxluq təşkil edir. Məkan anlayışını ifadə edən leksik vasitələr aşağıdakı yollarla yaranır: 1.Yer, məkan mənalı sadə ümumi isimlər: dağ, dərə, təpə, düz, çöl, meşə, səhra, qəsəbə, şəhər və s.; 2.Yer məkan mənalı düzəltmə ümumi isimlər: a) -laq: ovlaq, duzlaq, yaylaq. Bu şəkilçi adlardan isim düzəldən şəkilçi kimi verilir. Q.Kazımov həmin şəkilçini məkan məzmunu yaradan şəkilçi kimi qəbul etmir və yazır: “-laq şəkilçisi ilə düzəldiyi güman edilən otlaq, yaylaq, qışlaq, ovlaq sözündə -laq yox, iki şəkilçi var: feil düzəldən -la, -lə və feildən isim düzəldən -q, -k şəkilçisi: ot – otla (maq) – otlaq.”; b) -ıstan alınma şəkilçisi ilə yaranan məkan bildirən xüsusi isimlər: Gürcüstan, Dağıstan; c)-xana alınma şəkilçi ilə yaranan

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

məkan bildirən ümumi isimlər: toyxana, kitabxana; d) -lıq şəkilçisi ilə yaranan məkan mənası bildirən isimlər: dağlıq, bağlıq, ağaclıq; e) -calı şəkilçisi adlara əlavə edilərək məkan adlarını düzəldən şəkilçidir: sarcalı, qaracalı.

3.Yer bildirən düzəltmə zərflər: a) İşin icra olunduğu yeri bildirir: irəli, geri, yuxarı, aşağı, bəri və s. yer bildirən sadə zərflərdir; b) Düzəltmə yer zərfləri o qədər də inkişaf etməmişdir: ora, bura, içəri yer zərfləri o, bu əvəzliklərinə arxaik yönlük hal şəkilçisi -ra, iç isminə isə -əri (- qaru) şəkilçilərinin artırılması ilə düzəlmişdir. Düzəltmə zərf yaradan ikinci bir şəkilçi -lıqda, -likdə şəkilçisidir. Bu şəkilçinin bir sıra köməkçi adlara artırılaraq aralıqda, ortalıqda, yaxınlıqda, uzaqlıqda və s. məkan bildirən sözlər yaranır. 4.Köməkçi adlar da məkan məzmunlu sözlərdir. “Müasir Azərbaycan dilində bir qrup isimlər öz əsas vəzifəsi ilə bərabər köməkçi söz kimi də işlənir. Bu cür isimlərin köməkçi vəzifəsi, bir sıra məkan münasibətlərini bildirməkdir.” Məsələn: iç, orta, ara, böyür, yan, dib, arxa, dal, qabaq, ön, alt, üst, kənar, qıraq, qənşər, tərəf, boy, qarşı və s. 5.Həmçinin qoşmaların bir qrupu məkan mənasının yaranmasında iştirak edir. Düzdür, qoşmaların leksik mənası olmasa da, qoşulduqları sözlərin mənasından asılı olaraq, fərqlənmə, bənzətmə, müqayisə, səbəb, məqsəd, yön, aidlik, mənbə, nisbət, zaman, məkan və s. kimi mənaları ifadə edir. a) Adlıq halda olan sözlə işlənən içrə qoşması məkan bildirir, lakin müasir ədəbi dildə az işlənir. Məsələn: Getdi meşə içrə odun qırmağa, Şax-budağı başladı sındırmağa. (A.Səhhət). b) Yönlük halda olan sözlərlə işlənən tərəf, doğru, sarı, kimi, qədər, şəkilçiləşmiş -dək, -can və -cən qoşmaları istiqamət, yön və məkan çalarlarını ifadə edirlər.

**Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans**
**9 fevral 2024 / 34-37**
**Fundamentals of Science and Education VI International Scientific Conference**
**9 february 2024 / 34-37**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

**Nişan Nuriyeva**
Bakı Dövlət Universiteti
dissertant
heybetlin@mail.ru

# FEMİNİST TERAPİYA: KİŞİ VƏ QADIN BƏRABƏRSİZLİYİ

***Açar sözlər:*** *cins, gender, qadın, feminizm, feminist terapiya*
***Keywords:*** *type (sex), gender,feminization, feminist therapy*

Feminist Terapiya nəzəriyyəsi cəmiyyətdə kişi və qadın arasındakı bərabərsizliyə toxunan bir nəzəriyyədir. Feminist terapiya cinsiyyət və gücü terapevtik prosesə inteqrasiya edir. Feminist terapiyaya görə, bir insanı başa düşmək üçün o adamın problemlərə töhfə verən sosial və mədəni problemlər-amillər nəzərə alınmalıdır. Gender bərabərsizliyi nəzəriyyənin əsas ideyasını təşkil edir. Bu nəzəriyyəyə görə, cəmiyyətin genderə qoyduğu rollar və vəzifələr xüsusilə qadınlara qarşı işləyən bir prosesdir. Feminist terapiya, müxtəlif mədəniyyətlərdən olan qadın və cinsiyyət üzrə ixtisaslaşmış mütəxəssislərin işinə əsaslanan, feminist psixologiyası və təhlili haqqında məlumatları özündə cəmləşdirən terapiya təcrübəsidir. Feminist terapiyanın əsas prinsipləri aşağıdakılardır:

1.Qadın olmağın mədəni, sosial, siyasi, iqtisadi və tarixi mühitdə yarandığını və həyat boyu inkişaf etdiyini qəbul edir. Onun həyatında daxili amillərlə yanaşı mədəni, sosial, siyasi, iqtisadi, tarixi və tarixi amillərə də diqqət yetirir.

2.Feminist terapiya qadınlara cins, irq, sinif, etnik mənsubiyyət, cinsi oriyentasiya, yaş və fiziki sağlamlıq kimi

**Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans**
**9 fevral 2024 / 34-37**
**Fundamentals of Science and Education VI International Scientific Conference**
**9 february 2024 / 34-37**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

müxtəlif yollarla təsir edən güc formaları və yaşanan zülmün altında yatan güc arasındakı əlaqələrin təhlilini əhatə edir.

3.Feminist terapiya qadınlara qarşı aşkar və gizli zorakılığın onlara emosional, fiziki və mənəvi zərər verdiyini qəbul edir.

4.Feminist terapiya əsasən çatışmazlıqlara deyil, güclü tərəflərə diqqət yetirir. Bu səbəblə təzyiqə baş əyən qadınların davranışlarını anlayır.

5.Terapevt və pasient arasında güc balansının daimi və açıq şəkildə manipulyasiyasına əsaslanır. Gücdən sui-istifadə etməməyə diqqət yetirərək, terapevtik əlaqələr daxilində sui-istifadə potensialına yönəlir. Terapevt və pasientlərin terapiyanın məqsədlərini, istiqamətini və gedişatını birlikdə müəyyən etdiyi bir prosesdə həyata keçirirlər.

6.Gənc qızları və qadınları öz fərdi və kollektiv güclərini görməyə, iddia etməyə və qəbul etməyə dəstəkləyir. Onların ümumi və fərqli təcrübələrini qiymətləndirən və qəbul edən, həyatlarının sirrini həll edən bir prosesdir.

7.Feminist terapiyada özünü açıqlamadan düzgün istifadə olunur. Özünü açıqlamaq zərərli ola biləcəyi üçün nəzəri əsaslara söykənməli və bir məqsəd üçün edilməlidir (Brown, 2002: 35).

Feminist Terapiyanın ümumi olaraq 2 məqsədi vardır:

1.Qadınlara ictimai-siyasi qüvvələrin onların həyatına necə təsir etdiyini anlamağa kömək etmək;

2.Pasientlərə onların problemlərinin funksional pozğunluq əlamətləri deyil, sağ qalma strategiyaları kimi şərh edilə biləcəyini başa düşmələrinə kömək etmək.

Müalicə planı əvvəldən qadının güclü tərəflərini dəstəkləməyə və onun nailiyyətlərini, möhkəmliyini və elastikliyini qeyd etməyə əsaslanır. Zərər çəkmiş vəziyyətdə belə, qadının xoş anlarını kəşf etməyə çalışırlar. Keçmişə

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

baxdıqda biz yalnız problemli sahələrə diqqət yetirmirik, onların keçmişdə təhlükəli və ya çətin vəziyyətlərin öhdəsindən necə gələ bildikləri və əvvəlki uğurları haqqında da məlumatlar toplanır. Qadınlar sahib olduqları gücdən xəbərdar olmağa, ondan istifadə etməyə və ya güclü olmaq üçün yeni yollara əl atmağa təşviq olunurlar: zorakılığın səbəbkarından uzaqlaşmaq, ailə daxilində digər qadınlarla əlaqə qurmaq, ailədən kənarda yeni və təhlükəsiz bağlar qurmaq, ictimai fəallıq, cinsi olmayan əmək bölgüsü və s. işlərə təşviq olunurlar. Hər qadının dəstəyə ehtiyacı olabiləcəyi və hər qadının başqa bir qadına dəstək ola biləcəyi iddia edilir (APA, 2018: 41). Qadınlar zəifliklərinə həll yolu tapmaqdansa, öz güclü tərəflərini dərk etməyə təşviq olunurlar. Terapiya demistifikasiya olunur; qadının öz çətinliklərinin mütəxəssisi və öz xilaskarı olduğu göstərilir (Ballou, 2008: 78).

Feminist psixoterapiyada qadınların səlahiyyətlərinin artırılması üçün çalışan təşkilatlarla əməkdaşlıq və həmrəylik şəbəkələrini inkişaf etdirmək vacibdir. Onlar yerli, milli və transmilli səviyyələrdə sistemli və qlobal ayrı-seçkiliyin dəyişdirilməsinə yönəlmiş fəaliyyətlərdə iştirak imkanlarını nəzərdən keçirməyə təşviq olunurlar.

Günümüzdə bu terapiya təkcə qadınlarla işlə sərhədlənmir. Feminist terapiya cinsi zorakılığın qurbanı olan kişilər, uşaqlar, qocalar, etnik azlıqlar, əlillər, yoxsullar və məhbuslar olduğu müvəffəqiyyətli insanlar kimi əvvəllər yaxşı sağlamlıq xidməti almamış icmalarda da tətbiq edilir və nəticələr əldə edilir.

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

## Ədəbiyyat

1. Brown, L. S. (2022). Feminist Terapi, APA Psikoterapi Kuramları Dizisi – 10 (Ö. Yılmaz, Çev.). İstanbul: Okuyan Us Yayın.
2. APA (2018). American Psychological Association – Guidelines for Psychological Practice with Girls and Women. http://www.apa.org/about/policy/psychological-practice-girls-women.pdf.
3. Ballou, M., Hill, M., West, C. (Ed.) (2008). Feminist Therapy: Theory and Practice. New York: Springer.

**Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans**
**9 fevral 2024 / 38-42**
**Fundamentals of Science and Education VI International Scientific Conference**
**9 february 2024 / 38-42**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

**Pəri Nağızadə**
Bakı Dövlət Universiteti
dissertant
peri_ismayilova@bk.ru

# POZİTİV PSİXOLOGİYANIN POZİTİV TƏHSİLİN İNKİŞAFINA TƏSİRİ

***Açar sözlər:*** *psixologiya, təhsil, pozitiv psixologiya, davamlılıq proqramı, fərdi xüsusiyyət*

***Keywords:*** *psychology, education, positive psychology, sustainability program, individual characteristic*

Müasir dövrdəki inkişaf və dəyişimlər həyatımıza bir çox yöndən təsir göstərdiyi kimi təhsil sferasına da təsir göstərməkdədir. Pozitiv psixologiya anlayışı ilk dəfə 1954-cü ildə Maslou tərəfindən elmə gətirilmişdir. Maslou xoşbəxtlik, rahatlıq, hüzur, məmnunluq kimi pozitiv duyğuların kifayət qədər tədqiq edilmədiyinə diqqət çəkmişdir (Abdi Güngör, 2017: 155).Psixologiya sadəcə qırıq olanı düzəltmək deyil, ən yaxşısını tərbiyə etməkdir. O, sadəcə fəlsəfə, tarix oxumaq və ya sağlamlıq və xəstəliklə bağlı tibb sahəsi deyil (Seligman, 2000: 7).Pozitiv psixologiya yeni bir anlayış deyil. Əsrlər boyu əksər mütəfəkkirlər gözəl, əxlaqlı, fəzilətli yaşamağın əhəmiyyətini anlamağa çalışmışlar (Tekinalp, 2022: 1).

Pozitiv psixologiya bir-bir ilə əlaqəli 3 əsas mövzunu özündə birləşdirir:

1. Pozitiv duyğular;
2. Pozitiv fərdi xüsusiyyətlər;
3. Pozitiv qurumlar (ailə, məktəb və s.).

Məktəblərdə uşaqlarla və ailələrlə olan münasibət daha çox problemlərin üzərində mərkəzləşir.

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

Seligman və yoldaşlarının fikrinə görə, insanlar keçmişlə müqayisədə bu gün daha az xoşbəxtdirlər və bunun səbəbi bioloji, ekoloji, genetik amillərlə əlaqəli deyil. Bu daha çox modernləşmə və bizim "rahatlıq" anlayışımızdan irəli gəlir (Seligman, 2009: 295).

Məktəblərdə pozitiv psixologiyanı daha yaxşı başa düşməyə kömək edən digər bir anlayış pozitiv təhsil ifadəsidir. Green, Oades və Robinson pozitiv təhsili təhsildə pozitiv psixologiyanın tətbiqi kimi ifadə etmişlər.

Bu gün dünyada gənclər arasında depressiyanın artması məktəblərdə xoşbəxtliyin öyrədilməsinin vacibliyini göstərir. İnsanlarda yaşam eşqi nə qədər çox olarsa, öyrənmə həvəsi də bir o qədər çox olar.

Ənənəvi təhsilin hədəfi olan öyrənmə, həyat eşqindəki artım ilə artır.

Seligman və yoldaşları xoşbəxtliyin məktəblərdə öyrədilməsinin 3 əsas səbəbini göstərirdilər:

- Depressiyaya qarşı peyvənd olması
- Yaşam həvəsinin artmasının bir vasitəsi olması
- Daha yaxşı öyrənmə və kreativ düşünməyə kömək etməsi

Portuqaliyada orta məktəb şagirdləri üzərində aparılan bir tədqiqatda (Marques, Lopez və Pais-Ribliro, 2011) "Gələcək üçün ümid inşa etmək" proqramının qısa və uzun aralıqda şagirdlərin ümid, həyat eşqi, özünə hörmət, psixi sağlamlıq və akademik göstəricilərinə təsirini incələmişlər. Araşdırmaya 62 6-cı sinif şagirdi qatılmışdır. Onlardan 31 şagird eksperimental qrupda, 31 şagird isə kontrol qrupda idilər. Eksperimental qrupdakı şagirdlər kiçik qruplar şəklində hər biri 1 saat olan 5 seanslıq məşğələdə iştirak etmişlər. Eksperimentdən əvvəl və sonra aparılan test nəticələrinə əsasən, eksperimental qrupdakı

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

şagirdlərin ümid, həyat eşqi və özünə hörmət sferalarında artım müşahidə edilmişdir. Lakin psixi sağlamlıq və akademik göstəricilərində hər iki qrupda eksperimentdən əvvəl və sonra fərq olmamışdır (Abdi Güngör, 2017: 158).

Məktəblərdə pozitiv psixologiyanın tətbiqinin həm təhsil, həm də şagirdlərin inkişafı baxımından bir çox faydaları var. Green və yoldaşları hər gün pozitiv psixologiyanı tətbiq edən məktəb sayının artdığını bildirmişlər.

Pozitiv psixologiya texnikaları əsasən duyğusal və davranış problemləri olan şəxslər üçün hazırlanmış olsa da, bir çox pozitiv psixologiya texnikalarını müəllimlər də tətbiq edə bilərlər. Məktəblərdə pozitiv psixologiyanın tətbiqi üçün xüsusi təhsilli mütəxəssislərə ehtiyac yoxdur.

Pozitiv psixologiya məktəblərdə aşağıdakı proqramlar şəklində tətbiq oluna bilər:

1. Əksər valideynlər tərəfindən qiymətləndirilən bacarıq və güclü tərəflərin təşviqi;
2. Şagirdlərin davranışında rifah və gözlə görünən fərq yaratmaq;
3. Şagirdlərin öyrənməyə cəlb edilməsini asanlaşdırmaq

Məktəblərdə xoşbəxtliyi şagirdlərə öyrətmək mümkündürmü? Məktəblər üçün iki fərqli proqramı nəzərdən keçirək:

1. Penn Resilience Program (Penn Davamlılıq proqramı)
2. Strath Haven Pozitiv Psixologiya Kurikulumu (Seligman, 2009: 297).

Davamlılıq Proqramının əsas məqsədi öyrənənlərin zamanı idarə etmək bacarıqlarını gücləndirməkdir. Bu proqram şagirdlərə daha realist düşünməyi öyrətməklə nikbinliyi təşviq edir. Şagirdlərin qərar qəbul etmə, yaradıcı düşünmə, inadkarlıq kimi keyfiyyətləri inkişaf edir. Həmçinin

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

depressiyanın qarşısının alınması üçün ən çox araşdırılan proqramlardan biridir.

Strath Haven Pozitiv Psixologiya Kurikulumunun əsas məqsədi:

1. Şagirdlərə xarakterlərinin güclü tərəflərini müəyyən etməyə kömək etmək;
2. Onların öz güclü tərəflərindən istifadə etmələrinə şərait yaratmaq.

Proqramda istifadə olunan çalışmalardan biri belədir: Şagirdlərə 1 həftə ərzində hər gün 3 yaxşı şey yazmalarını tapşırırıq. Onların sadaladıqları hadisələr bəzən çox sadə ola bilər. Sonra sadalanan hər bir hadisə ilə bağlı sadalanan suallardan birinə cavab yazmasını bildirin: "Bu sizin üçün nə ifadə edir?", "Necə etmək olar ki, gələcəkdə bu yaxşı şey daha çox təkrarlansın?" , " Bu yaxşı şey niyə baş verdi?" .

Pozitiv Psixologiya Proqramının əsas nəticəsi bunlardır: öyrənmə ilə məşğul olmaq, məktəbdən həzz almaq, nailiyyətlər əldə etmək.

Bu gün bütün dünyada əsas siyasət firavanlığın yüksəldilməsinə yönəlməlidir. Dəyər verməyi öyrənmək və firavanlığa nail olmaq üçün şagirdlərə təhsilin ilk illərindən bu bacarıqlar aşılanmalıdır. Pozitiv təhsilin çiçəkləndiyi bir dövrdə dünya bu işin öhdəsindən gələ bilər.

## Ədəbiyyat

1. Abdi Güngör (2017). Eğitimde pozitif psikolojiyi anlamak. Türk Eğitim Bilimleri Dergisi, cilt 15, sayı 2, s.154-166.
2. Seligman, M. P., & Csikszentmihalyi, M. (2000). Positive psychology: An introduction. American Psychologist, 55(1), 5-14. doi:10.1037/0003-066X.55.1.5
3. Tekinalp B. E. ; Şerife Işık (2022). Eğitimde pozitiv psikoloji uygulamaları. Ankara, Pegem Akademi.

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

4. Seligman E. P. (2009). Positive education: positive psychology and classroom interventions. Oxford Review of Education, Vol 35, N 3, 293- 311.

**Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans**
**9 fevral 2024 / 43-45**
**Fundamentals of Science and Education VI International Scientific Conference**
**9 february 2024 / 43-45**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

**Rasim Vəlili**
Milli Müdafiə Universitetinin
Hərbi Elmi Tədqiqat İnstitutu
adyunkt
velili.rasim@mail.ru
Orcid id:0009-0000-5613-7362

# DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN AZƏRBAYCAN ƏDƏBİYYATINA TƏSİRİ

***Açar sözlər:*** *Qarabağ, Azərbaycan, ədəbiyyat, mübarizə, inikas*
***Keywords:*** *Karabakh, Azerbaijan, literature, fight, reflection*

Tarixə nəzər salanda görürük ki, hələ 20-ci əsrin əvvəllərindən ermənilər tarixi Azərbaycan torpaqlarına qarşı haqsız ərazi iddialarında olmuşdurlar. Bu iddialar əsrin 90-cı illərində daha kəskin vüsət almış və nəticədə Dağlıq Qarabağ münaqişəsinin baş verməsinə gətirib çıxarmışdır. Baş vermiş münaqişə zamanı vətənimizin qəhrəman oğul və qızları vətənin haqlı müdafiəsinə qalxmışdırlar. Qarabağ uğrunda aparılan ədalətli mübarizəmiz ictimai fikrimizin bir çox sahələrinə, bütün həyatımıza təsir etdiyi kimi ədəbiyyatımıza da əhəmiyyətli dərəcədə təsir göstərmiş, onun yeni mövzu və yaradıcılıq vəzifələrini müəyyənləşdirmişdir.

Əsas vurğulanmalı cəhət olaraq onu qeyd edə bilərik ki, Azərbaycan ədəbiyyatı Qarabağ münaqişəsini eyni regionda yaşayan iki qonşu xalq və respublika arasında sadəcə milli konflikt olaraq əks etməmişdir. Sovet ideologiyasının əksinə olaraq, ədəbiyyat bu konflikti məhz müharibə səviyyəsində qavramış və mənalandırmışdır. Müsbət cəhətlərdən biri də odur

**Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans**
**9 fevral 2024 / 43-45**
**Fundamentals of Science and Education VI International Scientific Conference**
**9 february 2024 / 43-45**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

ki, bu dövrdə yazılmış ədəbi əsərlərə nəzər saldıqda müharibənin geniş mənada, vətən uğrunda müharibə, vətən müharibəsi mənasında başa düşüldüyünü və bunun bütövlükdə ədəbi fikrimizin əsas ideyası səviyyəsində dəyərləndirildiyinin şahidi oluruq.

XX əsr total müharibələr əsri kimi ümumiləşdirilir. Bəşəriyyətimizi iri miqyaslı fəlakətlərə və faciələrə düçar etmiş iki böyük dünya müharibəsi məhz bu əsrdə baş vermişdir. Bunu da xüsusi qeyd etməliyik ki, bu müharibələr bilavasitə ərazimizdə getməmişdir, ancaq xalqımız həmin müharibələrdən kənarda qalmamışdır. Xüsusilə İkinci dünya müharibəsində xalqımız keçmiş Sovet İttifaqı xalqları ilə birlikdə faşizmə qarşı müharibədə iştirak etmiş, misilsiz hərbi rəşadət və qəhrəmanlıqlar göstərmişdir. Əlbəttə, xalqımızın bu müharibədə iştirakını və nümayiş etdirdiyi qəhrəmanlığın böyük miqyaslı olduğunu inkar etmək olmaz. Xalqımızın əsgər övladları Sovet İttifaqı uğrunda mübarizə aparardılar, çünki onlar bununla həm də öz vətənlərini, öz torpaqlarını qorumuş olurdular. Lakin eyni zamanda xalqımız üçün bu müharibə dünya müharibəsi olmuşdur ki, bunu da yaddan çıxarmaq olmaz.

Əsrin axırında isə müharibə bilavasitə torpağımızda baş vermişdir. Biz də öz vətənimiz, öz torpağımız, öz dövlətçiliyimiz və müstəqilliyimiz uğrunda, milli qürurumuz uğrunda mübarizə aparmışıq. Buna görə də Qarbağda və digər bölgələrdəki müharibə, erməni silahlı qüvvələri ilə döyüşlər bizim üçün, xalqımız üçün sözün həqiqi mənasında vətən müharibəsidir. Səciyyəvidir ki, ədəbiyyatımız da ən yaxşı əsərlərində müharibəni məhz vətən müharibəsi kimi qavramış və əks etdirmişdir.

Müharibənin bədii təcəssümündə müasir ədəbiyyatımız ümumən müharibə mövzusu ilə bağlı zəngin təcrübəsinə və

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

ənənələrinə yenidən qayıtmalı, ona müraciət etməli olmuşdur. Çünki müharibə dövründə müharibənin həqiqi mənada ədəbiyyatda təcəssümünü vermək bir qədər çətindir, müharibə şəraitində ədəbiyyat öz vəzifəsini - xalqı səfərbərliyə çağırış kimi müəyyənləşdirir və həyata keçirir. 1988-2000-ci illərdə, yəni on ildən artıq bir dövr ərzində ədəbiyyatımız bu vəzifənin öhdəsindən layiqincə gəldiyini iqrar edə bilərik və etməliyik. Xüsusilə, atəşkəs rejimində ədəbiyyatımız müharibəyə daha geniş baxış ifadə etmək imkanı qazanmışdır və bu vəzifəni gerçəkləşdirməyə çalışmışdır. Müharibə mövzusunda roman və povest kimi mürəkkəb epik janrlarda əsərlərin yaranmasını, meydana çıxmasını da öncə bu amil ilə izah etmək düzgün olardı. Müharibənin həqiqi, vüsətli bədii dərki ədəbi prosesin işidir. Lakin elə o dövrlərdə yaranan əsərlərdə də müharibənin tarixi, sosial-ictimai köklərinin və səbəblərinin, onun real tarixi mənasının bədii və siyasi dərkinə qüvvətli bir meylin olması da danılmaz həqiqətlərdəndir.

Müharibənin bədii təsvirinə ədəbiyyat geniş və müqyaslı ölçüdə başlamışdır. Belə hesab etmək olar ki, müharibə mövzusu deyəndə təkcə Qarabağ hadisəsinə həsr olunan əsərlər nəzərdə tutulmamalıdır. Qarabağ hadisəsi Azərbaycanda milli-azadlıq hərəkatına vüsət verdi, meydan hərəkatı xalqın yeni, müstəqillik şüurunu nümayiş etdirdi. Əslində Azərbaycanda milli-azadlıq hərəkatı, sovet imperiyasından xilas olmaq uğrunda mübarizə Qarabağ hadisəsi ilə bilavasitə bağlı olaraq başlamışdır. Buna görə də bütün hadisələrin bədii fikir və inikası müharibə və ədəbiyyat probleminin mühüm aspektlərindən hesab edilməlidir.

**Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans**
**9 fevral 2024 / 46-49**
**Fundamentals of Science and Education VI International Scientific Conference**
**9 february 2024 / 46-49**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

**Teybə Xəlilova**
Bakı Dövlət Universiteti
dissertant
teyba.xalilova@gmail.com

# GƏNCLİK DÖVRÜNÜN XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *gənc, psixologiya, cəmiyyət, fərd, yaş qrupu*
***Keywords:****youth, psychology, society, individual, age group*

Müasir elmi məkanda gənclər bir sosial qrup kimi ənənəvi olaraq böyük diqqət cəlb edir. Gənclərin problemləri fəlsəfə, sosiologiya, psixologiya və pedaqogikanın müzakirə mövzusudur. Qeyd etmək lazımdır ki, tədqiqatçıların gənclər mövzusuna marağı cəmiyyətin sənayeləşməsi və müasirləşməsi prosesləri ilə ayrılmaz şəkildə bağlıdır. Gənclər cəmiyyətin ayrılmaz hissəsidir. Bəşəriyyətin qlobal problemləri, qloballaşmanın real prosesləri və formaları, ilk növbədə, gənclik ölçüsünə malikdir.

İctimai fikir tarixində gəncliyin universal tərifini vermək, onun fərdi və ictimai inkişafının xüsusiyyətlərini əsaslandırmaq cəhdləri edilmişdir. Gənclərin sosial birlik kimi nəzəri dərk edilməsi həmişə konkret tarixi vəziyyətdən asılı olmuşdur. V.T.Lisovskiyə görə: “Gənclər sosiallaşma, mənimsəmə mərhələsindən keçən və daha yetkin yaşda artıq təhsil, peşə, mədəni və digər sosial funksiyaları qazanmış insanlar nəslidir; konkret tarixi şəraitdən asılı olaraq gənclərin yaş meyarları 16-30 yaş arasında dəyişə bilər” (Lisovskiy, 1996: 254). “Gənclik” olaraq təyin olunan həyat dövrü təkcə sosial quruluş deyil, həm də fərdi dəyişiklik dövrüdür: Mizen gəncliyi “sosial olaraq müəyyən edilmiş kateqoriya” kimi müəyyən edir və bu baxımdan orada gəncliyi başa düşmək üçün əsas kimi yalnız

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

fərdi bioloji markerlərə etibar etməyin mənası yoxdur (Mizen, 2004: 47). Sadə dillə desək, gənclərin böyüdüyü mədəni, sosial və siyasi kontekstlər həmişə uşaqlıq, yeniyetməlik və yetkinlik dövrünün nə olduğu ilə bağlı tərifləri formalaşdırır. Qərb sosioloqları uzun müddət gəncliyə birtərəfli – “problemli” baxışı ilə seçilirdilər: onlar öz əsərlərində gənclərin sapmalarına və yeni nəsillərin nümayəndələrindən irəli gələn digər “təhlükələrə” xüsusi diqqət yetirirdilər. Nəticədə, yalnız “problemli” gəncləri öyrənmək istəyi ona gətirib çıxardı ki, davranışı qanundan kənara çıxmayan, ümumi qəbul edilmiş əxlaqi prinsipləri pozmayan gənclərin əksəriyyəti tədqiqat marağından kənarda qaldı. Sovet tədqiqatçıları, əksinə, ilk növbədə, gənclərin sosial cəhətdən bəyənilən fəaliyyətinə diqqət yetirir, oğlan və qızları “işıqlı gələcəyin potensial yaradıcıları və kommunizm qurucuları” kimi qəbul edirdilər. Fərd doğulduğu andan ölüm anına qədər obyektiv olaraq sosial mühitin bir hissəsidir. O, eyni zamanda, bir çox sosial təsirlərə məruz qalaraq mürəkkəb bir dünyada yaşayır. O, nadir hallarda, əgər mümkündürsə, ictimai təsirdən asılı olmayaraqyalnız evdə formalaşır. Keçmişdə müxtəlif dövrlərdə ona təsir edən bütün ictimai təsirləri təsvir etmək daha çətindir. Uşaqlıqdan yetkinliyə keçid gənclərin müstəqil yetkinlik həyatına tədricən və artan şəkildə daxil edilməsinin uzun bir prosesidir. Beləliklə, gəncin sosial varlıq kimi mövcudluğu və onun sosial inkişafı bir çox sosial dünya və qrupların – ev, məktəb, icma, həmyaşıdları və ətrafındakı böyüklərin heyrətamiz dərəcədə mürəkkəb təzyiqlərinin məhsuludur. “Gənclik” termininin çoxmənalılığının qurulduğu əsas ölçülərdən biri də yaşdır. Bir yaş qrupu olaraq gənclər müəyyən həyat tərzi, davranış tərzi, mədəni norma və dəyərlərlə xarakterizə olunur. Gənclik başlanğıc dövrü kimi şüurda gələcək, perspektivlər, ümidlər ilə əlaqələndirilir və

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

buna görə də müəyyən xüsusiyyətlərdən daha çox müəyyən bir istək (niyyət) nümayiş etdirir. Eyni zamanda, həyatın bu dövrü çox vaxt stress, problem, özü və cəmiyyətlə münaqişələrlə doludur. Gənclik dəyişiklik, tərəqqi və istək dövrüdür, gənclər öz hissləri, şəxsi məqsədləri, heysiyyəti və statusu ilə bağlı bir sıra proqnozlaşdırıla bilən çətinliklərlə üzləşəcəklər. Onların qarşısını almaq mümkün deyil və onların mövcud imkanlarına və resurslarına uyğun olaraq həll edilməlidir ki, bunlar da təsnifat tədqiqatının və təhlilinin predmetidir.

Sosial baxımdan gənclik aydın şəkildə sosial vəzifələr, rollar və statuslar toplusu ilə əlaqələndirilir. Bunlara, xüsusən də təhsil almaq, peşəkar fəaliyyətə başlamaq, həyat yoldaşı seçmək və ailə qurmaq daxildir (Roberts, 2007: 151). Bu, uşaqlığın asılı və zəif dövrü ilə yetkinliyin müstəqilvə çox güclü mərhələsi arasında əsas keçid dövrüdür. Əgər uşaqlıq daha çox məktəb təhsili ilə, yetkinlik həyatı isə peşəkar məşğulluqla bağlıdırsa, gənclik bir dövr kimi bu sosial sahələr arasındadır; bu, icbari orta təhsilin sonu və iş həyatının başlanğıcıdır.

Yaradıcı qabiliyyətlərə malik, fiziki,əqli və sosial keyfiyyətlərin inkişaf mərhələsində olan gənclər cəmiyyətin intellektual potensialının daşıyıcılarından biridir, böyük sosial və peşəkar perspektivə malikdirlər. Cəmiyyətin digər sosial qruplarına nisbətən yeni biliklərə, peşələrə və ixtisaslara daha tez yiyələnməyə qadirdir. Fizioloji nöqteyi-nəzərdən gənclik əslində artıq nəsil yetişdirmək, pul qazanmaq, seçim etmək yaşına çatmışdır.

Gənclərin yaş qrupu kimi təhlil edərkən, bir-biri ilə əlaqəli bir neçə məsələ üzərində dayanmaq məqsədəuyğundur. Birincisi, bu, həyat tərzidir, gənclərin sosial statusunun xüsusiyyətləri, eləcə də müasir sosial sistemdə onların yeri və funksiyalarıdır. İkincisi, bu, gənclər qrupunun yaranması və

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

müasir sosial-mədəni şəraitdə transformasiyası üçün tarixi və sosial ilkin şərtlərin təhlilidir. Üçüncüsü, bu həyat mərhələsinin əsas vəzifəsi və onun cari xüsusiyyətləri kimi yetkinliyə nail olmaqdır.

## Ədəbiyyat

1. Lisovski, V. T. (1996). Sotsyoloqiya molodeji / V. T. Lisovski. – SPb.:İzd-vo S.-Peterb.un-ta. – 361 s.
2. Mizen, Phil (2004). The Changing State of Youth. Houndmills, Basingstoke, Hampshire: Palgrave Macmillan.
3. Roberts, K. (2007) ‘Youth transitions and generations: a response to Wyn and Woodman’, Journal of Youth Studies, 10: 263–9 p.

**Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans**
**9 fevral 2024 / 50-53**
**Fundamentals of Science and Education VI International Scientific Conference**
**9 february 2024 / 50-53**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Aytəkin Ağayeva**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,
Fransız-Azərbaycan Universiteti,
doktorant
aytekin_agayeva@mail.ru
**Dünya Babanlı**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,
Fransız-Azərbaycan Universiteti,
ARETN M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu,
kimya elmləri doktoru
dunya.babanly@ufaz.az

## EHQ ÜSULUNUN CdSb BİRLƏŞMƏSİNİN TERMODİNAMİK XASSƏLƏRİNİN TƏDQİQİNƏ TƏTBİQİ

***Açar sözlər:*** *EHQ üsulu, CdSb birləşməsi, Dirak materialları, pniktidlər, termodinamik xassələr*

***Keywords:*** *EMF method, CdSb compound, Dirac materials, pnictides, thermodynamic properties*

Metal pniktidləri termoelektrik, optik, superkeçirici, topoloji izolyator, maqnit və s. kimi tətbiqi xassələr nümayiş etdirir və müasir texnologiyanın ən innovativ funksional materiallarından hesab olunurlar (Shevelkov, 2008: 1-19). O cümlədən, CdSb binar birləşməsinin yüksək termoelektrik göstəriciləri və maraqlı yarımkeçirici xassələri onun işıq yayan

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

diodlar və fotodetektorlar kimi optik cihazlarda, İQ-optikada istifadəsinə imkan verir (Miao, 2012: 121-153).

Qabaqcıl tətbiqi materialların sintez üsullarının təkmilləşdirilməsi və onların monokristallarının yetişdirilməsi üçün müvafiq faza diaqramlarının tərtib olunması, eləcə də onlarda əmələ gələn aralıq fazaların termodinamik xassələrinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir (Babanly, 2017: 1703-1729). Qeyd edilənləri nəzərə alaraq, təqdim olunan işdə CdSb birləşməsinin termodinamik xassələri maye elektrolitli elektrik hərəkət qüvvəsi (e.h.q.) üsulu ilə öyrənilmişdir.

Cd –Sb sisteminin faza diaqramı 456$^{o}$C temperaturda açıq maksimumla əriyən CdSb tərkibli bir aralıq birləşmənin əmələ gəlməsi ilə xarakterizə olunur (Okomoto, 2016). CdSb birləşməsi 290$^{o}$C-də elementar kadmiumla, 445$^{o}$C-də isə elementar stibiumla evtektik tarazlıqda olur. Elmi ədəbiyyat analizi göstərir ki, kadmiun stibnitin termodinamiki xassələrinə aid etibarlı və bir-biri ilə uzlaşan yeni təcrübi nəticələr demək olar ki, yoxdur. Ona görə də biz, bu birləşmənin termodinamik xassələrini e.h.q. üsulu ilə araşdırmaq üçün Cd-Sb sistemin hal diaqramının CdSb-Sb ikifazalı sahəsindən seçilmiş 54 at.%Sb + 46 at.%Cd və 70 at.%Sb + 30 at.%Cd tərkibli nümunələr hazırlayaraq sintez etdik. Sintez yüksək təmizlik dərəcəsinə malik elementar komponentlərin (Alpha Aesar firmasının 99.999% təmizlik dərəcəsinə malik Cd və Sb) vakuumlaşdırılmış kvars ampulalarda birgə əridilməsi ilə həyata keçirilmişdir. Sintezdən sonra nümunələr solidusdan aşağıda ~ 100 saat termiki emal edilmişdir. Sintez və termiki emal edilmiş nümunələrin faza tərkibləri toz rentgenoqrafiyası üsulu ilə təsdiq edilmişdir. Termodinamik tədqiqatlar aparmaq üçün aşağıdakı tip qatılıq dövrələri tərtib edilmiş və onların e.h.q. qiymətləri ölçülmüşdür:

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

(-) Cd (b) | KCl + $CdCl_2$ + qliserin məhlulu| (Cd xəlitədə) (b) (+)

Ölçmələr 298-430K temperatur intervalında, Keithley 2100 6 ½ rəqəmsal multimetri vasitəsilə həyata keçirilmişdir. Müəyyən olunmuşdur ki, heterogen sahə daxilində e.h.q. qiymətləri sabit olub, hər iki nümunə üçün e.h.q.-nin temperaturdan asılılığı isə xəttidir. Təcrübi nəticələr ən kiçik kvadratlar üsulu ilə işlənərək $E = a + bT$ tipli xətti tənliklər alınmış, həmin tənliklər əsasında 298 K-də xəlitələrdə kadmiumun parsial molyar termodinamik funksiyaları hesablanmışdır. Birləşmənin inteqral termodinamik funksiyaları isə potensialəmələgətirici reaksiyalar üsulundan istifadə edilməklə təyin edilmişdir. Əldə olunmuş termodinamik funksiyalar CdSb birləşməsinin fundamental fiziki-kimyəvi göstəriciləri olub müxtəlif elektron informasiya bazalarına daxil edilib termodinamik hesablamalarda istifadə oluna bilər.

## Ədəbiyyat

1. Babanly, M. B., Chulkov, E. V., Aliev, Z. S., Shevelkov, A. V., & Amiraslanov, I. R. (2017). Phase diagrams in materials science of topological insulators based on metal chalcogenides. *Russian Journal of Inorganic Chemistry*, *62*(13), 1703-1729. https://doi.org/10.1134/s0036023617130034
2. Miao, S., Eychmüller, A., & Hickey, S. G. (2012). “Artificial Supermolecule”: Progress in the study of II–V colloidal semiconductor Nanocrystals. *Molecules at Work*, 121-153. https://doi.org/10.1002/9783527645787.ch7
3. H.Okamoto; M.E.Schlesinger; E.M.Mueller ASM International Volume 3
DOI: https://doi.org/10.31399/asm.hb.v03.9781627081634
ISBN electronic: 978-1-62708-163-4.

4. Shevelkov, A.V. (2008). *Chemical aspects of the design of thermoelectric materials. Russian Chemical Reviews, 77(1), 1–19.* doi:10.1070/rc2008v077n01abeh003746

**Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans**
**9 fevral 2024 / 54-56**
**Fundamentals of Science and Education VI International Scientific Conference**
**9 february 2024 / 54-56**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

**Sevinc Musayeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
doktorant
musayevasevinc11@gmail.com
**Dursun Əliyeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
doktorant
nicat-zamanov-94@mail.ru
**Günel Ağazadə**
Azərbaycan Dövlət Aqrar Universiteti
gunel.agazade1996@mail.ru

# MÜXTƏLİF PLOİDLİ BUĞDA NÜMUNƏLƏRİNİN FENOLOJİ MARKERLƏRLƏ QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər:*** *bərk buğda, biomorfoloji əlamət, fenoloji müşahidə,məhsuldarlıq, yumşaq buğda*

***Keywords:*** *durum wheat, biomorphological characteristics, phenological observation, productivity, soft wheat*

Məlum olduğu kimi Azərbaycanda Qafqaz florasının 65% və ya dünya florasının 11%-ni təşkil edən təqribən 4500 növ ali bitki qeydə alınmışdır ki, bunun da 25 növü taxıllar fəsiləsinə aiddir (Azərbaycan Respublikasının Biomüxtəliflik üzrə ölkə Tədqiqatları Bioloji Müxtəliflik Konvensiyası üzrə Birinci Milli Məruzə, 2004: 161).Buğda bitkisi (T.aestivum L., T.durum Desf.) Yer kürəsinin ən əhəmiyyətli və mədəniləşdirilmiş ərzaq bitkilərindən olub, əhalinin qidasının əsasını təşkil edir. Buğda, geniş becərilən 3 əsas (düyü, qarğıdalı, buğda) dənli bitkilərdən biri olmaqla, dünya əhalisinin 36%-dən çox hissəsinin təxminən 2 milyardı üçün

**Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans**
**9 fevral 2024 / 54-56**
**Fundamentals of Science and Education VI International Scientific Conference**
**9 february 2024 / 54-56**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

başlıca qida mənbəyidir. Dünyada buğdanın illik istehsalı təxminən 600 milyon tondur və 2020-ci ilə qədər bu rəqəmin 760 milyon tona çatacağı proqnozlaşdırılır. 2050-ci ildə isə dünya əhalisinin 9 milyarddan, buğda bitkisinə olan tələbatın isə 900 milyon tondan çox olacağı ehtimal edilir (Alexandratos, 2011: 11-56). Tarla təcrübəsi Azərbaycan Dövlət Aqrar Universitetinin Taxıl və paxlalı bitkilər sahəvi laboratoriyasının təcrübə sahəsində 2022-2023-cü illərdə aparılmışdır. Tədqiqatda istifadə edilən bərk buğda nümunələri hər nümunədən 70 dən, toxumarası məsafə 4 sm, cərgəarası məsafə isə 20 sm olmaqla səpilmişdir. Vegetasiya müddətində 3 dəfə suvarılmışdır**.** Öyrənilən poliploid buğda nümunələri yığıldıqdan sonra, hər nümunədən 12 bitki üzərində 6 əlamət üzrə: (çiçəkləmə vaxtı, bitkinin hündürlüyü (sm), buğumların sayı, məhsuldar gövdələrin sayı, sünbülün uzunluğu (sm), sünbülcüklərin sayı, 1000 dənin kütləsi (qram), struktur analiz aparılmış-məhsuldarlığın elementar stuktur elementləri öyrənilmişdir.

Tədqiqat obyekti yerli poliplod buğda nümunələri olmuşdur. Fenoloji müşahidələr çıxışdan başlayaraq tam yetişmə fazasına qədər Kupermana görə aparılmışdır və məhsuldarlıq vahid sahədən götürülmüş dərzlərə görə hesablanmışdır. Poliploid buğda nümunələrində çiçəkləmə vaxtı aprel ayının sonu may ayının ortalarına qədər müşahidə edilmişdir. Bitkinin boyu ən hündür olan 5 gövdədə olan sünbülün ucundan kök boğazına qədər olan hissə ölçülmüşdür. Valenciae nümunəsində bitkinin hündürlüyü 115 sm olduğu halda, 95 sm (Leucurum) və 110 sm (tr. spelta) hündürlükdə bitkilərə də rast gəlinmişdir.

Buğumaralarının sayı 4 və 5 intervalında dəyişilir. Buğumarasının uzunluğu ən yüksək Tr.Timopheevii 38 sm intervalında ən az isə  Tr.Monococcum 20 sm dəyişilir, bəzi

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

nümnələrdə isə 25 sm və 35 sm intervalında tərəddüd edir. Məhsuldar gövdələrin sayı maksimum 6 ədəd Nurcahan sortu olduğu halda, bəzi nümünələrdə 3-4 və ən az Leucomelan nümunəsində 3 ədəd olmuşdur. Göründüyü kimi, sünbülün uzunluğu *Tr.Spelta* nümunəsində 26 sm-dir. Digər nümunələrdə isə 18 sm və 22 sm arasında dəyişir. Sünbülcük sayı 17 və 26 arasında dəyişir. 1000 dənin kütləsi hər nümunədən 280 dən 0,001 qr həssaslıqlı tərəzidə çəkilmiş və 4-ə vurularaq müəyyən edilmişdir.

Beləliklə, aparılan tədqiqat nəticəsində biomorfoloji parametrləri müxtəlif ploidli buğda nümunələrində və Nurcahan sortunun öyrənilməsi nəticəsində müxtəlif aqrobioloji göstəricilərə görə geniş polimorfizm müəyyən edilmişdir. Seleksiyada yüksək məhsuldar yeni sortların yaradılması istiqamətində başlanğıc material kimi istifadə olunması nəzərdə tutulur. Nümunələr üzərində tədqiqat işləri davam etdirilir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Biomüxtəliflik üzrə ölkə Tədqiqatları Bioloji Müxtəliflik Konvensiyası üzrə Birinci Milli Məruzə (2004).Bakı, 161 s.
2. Alexandratos, N. et al. (2011). World food and agriculture to 2030/2050 revisited. Highlights and views four years later / Looking ahead in world food and agriculture: perspectives to 2050. p.11-56.

**Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans**
**9 fevral 2024 / 57-60**
**Fundamentals of Science and Education VI International Scientific Conference**
**9 february 2024 / 57-60**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

**Tahə İbrahimov**
Ağsu rayonu, İlxıçı kəndi
respublikaxeber.az@gmail.com

# ZƏLZƏLƏLƏRİN BAŞ VERMƏSİNƏ SƏBƏB NƏDİR?

***Açar sözlər:*** *ərazilər, bal sistemi, tektonik hərəkət, xəbərdarlıq*
***Keywords:*** *territories, bal system, tectonic movement, warning*

Təbiətin ən qorxunc, ən dəhşətli hadisələrindən biri zəlzələdir. Zəlzələlərin baş vermə səbəbləri, qabaqcadan xəbər verilməsi haqqında saysız-hesabsız tədqiqatlar, məqalələr, elmi araşdırmalar vardır. Lakin, elmin çox güclü inkişaf etdiyi hal-hazırda da zəlzələnin baş vermə vaxtını qabaqcadan xəbər vermək mümkün deyildir. Uzun müddət mümkün olmayacaqdır. Çünki, baş vermə səbəbləri hazırda elmə dəqiq məlum deyildir.

Bu mövzuda hər hansı fikir söyləmək, məqalə yazmaq heç vaxt ağlıma gəlməzdi. Çünki, zəlzələnin baş verdiyi vaxtlar, səbəblər və başqa amillər arasında elmi qanunauyğunluq müəyyən etmək hər hansı insandan çox dərin düşünmək qabiliyyəti tələb edir. Bunları nəzərə alaraq mövzu ilə əlaqədar olaraq hər hansı qeydlər etmək fikrini özümdən uzaqlaşdırmağa çalışmışam. Bir də ki, dünya alimlərinin bununla əlaqədar olaraq saysız-hesabsız yazıları vardır.

Lakin, bu yaxınlarda mətbuatdan mənə məlum oldu ki, son iki ayda respublikamızın ərazisində gücü 2-3 bal olan 20-yə qədər zəlzələ baş vermişdir. Bunları nəzərə alaraq, hamının fikirlərinə hörmət edərək yalnız öz bildiklərimi qeyd edəcəyəm.

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

İlk əvvəl suala diqqət yetirək. Necə olur ki, zəlzələ baş verir? Alimlər səbəbi yerin dərin qatlarında enerji toplanması, qismən ayın cazibə qüvvəsi və günəşdə gedən proseslərlə əlaqələndirirlər. Başqa amillər də qeyd olunur. Hamısını izah etmək mümkün deyildir.

Zəlzələnin baş verməsində yuxarıda qeyd etdiyim amillər çox az, cuzi rol oynayır. Əsas səbəb tamamilə başqadır. Heç kim bu vaxta qədər əsas səbəb haqqında fikir söyləməmişdir. Əsas səbəb mənə tamamilə aydındır və qısa da olsa, izah etməyə çalışacağam.

Məlumdur ki, Yer kürəsi üç qatdan, Yer qabığı, Mantiya və Nüvədən ibarətdir. Zəlzələ Yer qabığının titrəyişi nəticəsində baş verir. Titrəyişə səbəb isə Yer qabığının dərin qatlarında və Mantiyada baş verən proseslərdir. Yer qabığının dərin qatlarını və Mantiyanı təşkil edən maddələrin sıxlığı eyni deyildir, müxtəlifdir.

Bizim Günəş sistemimiz genişlənmə qanunlarına tabedir. Müasir elmə genişlənmə qanunları haqqında çox məsələ məlum deyildir. Bir məsələni dəqiq qeyd edə bilərəm ki, Yer qabığının dərin qatlarında və Mantiyanın yuxarı hissəsində sıxlığı yüksək olan hissələr zəlzələnin baş verməsinə səbəb olur. Yer qabığı, Mantiya və Nüvənin bütün nöqtələri genişlənmə qüvvələrinin təsiri ilə həcmlərini getdikcə genişləndirəcək. Bu isə Yer üzərində zəlzələlərin baş verməsinə səbəb olur. Zaman keçdikcə bu proses çoxalacaqdır.

Hansı ərazilərdə zəlzələnin baş vermə ehtimalı çoxdur?İki qonşu ərazinin altında yerləşən Mantiyanın üst hissəsində sıxlıq fərqi mövcuddur. Bu fərq nə qədər çox olarsa, zəlzələnin baş vermə ehtimalı, o qədər çox olur. Gec-tez sıxlığı çox olan ərazidə zəlzələ baş verəcəkdir. Baş vermə vaxtını da müəyyən etmək mümkündür.

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

Başqa səbəblər də vardır. Məsələn, çox vaxt zəlzələ iki qonşu ərazinin sərhədi boyunca baş verir. Nə üçün?Çünki, iki qonşu ərazilərin sərhədləri nisbətən daha tez genişlənmə qüvvələrinin təsirinə məruz qalır. Zəlzələnin baş vermə vaxtını dəqiq müəyyən etmək, əhalini xəbərdar etmək mümkündürmü? Mümkündür. Bunun üçün əvvələr zəlzələlər baş vermiş əraziləri müxtəlif cihazların köməyi ilə nəzarətdə saxlamaq, qonşu ərazilərin sıxlıq fərqini dəqiq müəyyən etmək vacibdir. Nəzərə alınmalıdır ki, hər hansı ərazidə sıxlıq fərqi kiçik rəqəmlə ifadə olunsa belə, orada zəlzələ baş verə bilər. Elə ərazi də ola bilər ki, orada sıxlıq fərqi böyük rəqəmlə ifadə olunsun, lakin zəlzələ baş verməsin.

Genişlənmə qüvvələrinin təsiri bütün ərazilərdə eyni deyildir. Həmin qüvvələrin gücü ən kiçik rəqəmlə ifadə olunsa belə, elə ərazilər vardır ki, orda zəlzələ baş verə bilər. Elə ərazilər də vardır ki, genişlənmə qüvvələrinin gücü böyük rəqəmlə ifadə olunur. Lakin, zəlzələ baş vermir. Lakin, belə ərazilərdə də zəlzələlər baş verəcəkdir. Həmin ərazilərin adlarını qeyd etmək fikrindən uzağam.

Son vaxtlar Respublikamızın ərazisində baş vermiş zəlzələlər həm dağlıq, həm də düzən rayonlarında baş vermişdir. Alimlərin məlumatına görə, Yerin dərin qatlarında enerji boşalması gedir. Güclü zəlzələ heç vaxt baş verə bilməz. Lakin, bu belə deyildir. Gücü 5-6 bal olan zəlzələnin Böyük Qafqazın şərq hissəsində, Abşeron yarımadasının şərq sahillərində, Xəzər dənizində baş vermə ehtimalı vardır. Bununla əlaqədar olaraq başqa məsələləri qeyd etmək düzgün olmazdı. Ancaq əhalini qabaqcadan xəbərdar etmək, müəyyən tədbirləri görmək vacib məsələlərdəndir.

Sentyabrın 20-nə qədər, Orta Asiya, İran yaylası, Əfqanıstan ərazisində 6-7 bal zəlzələnin baş verməsi ehtimalı vardır. Cənubi Amerika materiki həm zəlzələ, həm də çox ciddi

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

tektonik hərəkətlərə məruz qalacaqdır.Zəlzələlərin çox az baş verdiyi Qərbi Avropa, Şimali Amerika materiki, Qərbi Sibir, Cənub-Şərqi Asiya yarımadası tektonik hərəkətlərin baş verdiyi ərazilər olacaqdır. Başqa ərazilərdə də zəlzələlər baş verəcəkdir. Qeyd etdiklərimə öz münasibətini bildirənlərin hamısına öz minnətdarlığımı bildirirəm.

Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans
9 fevral 2024 / 61-64
Fundamentals of Science and Education VI International Scientific Conference
9 february 2024 / 61-64
DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

**Tahə İbrahimov**
Ağsu rayonu, İlxıçı kəndi
respublikaxeber.az@gmail.com

# İNSANIN QOCALMASINA SƏBƏB NƏDIR?

***Açar sözlər:*** *qocalma predmeti, elmi araşdırma, yaşlanma dövrü, qidalanma, görülən tədbirlər, yaranma səbəbi*
***Keywords:*** *aging premise, scientific research, aging period, nutrition, actions taken, cause of formation*

İnsanın ömrünün uzadılması, qocalığın qarşısının alınması haqqında saysız-hesabsız məqalələr yazılmış, elmi araşdırmalar aparılmışdır.Dünyanın ayrı-ayrı ərazilərində əhalinin yaşadığı dövrlərini müqayisə etdikdə məlum olur ki, insanın ömrü mühit, sosial amillər, qidalanma, orqanizmin fərdi xüsusiyyətləri ilə və başqa amillər ilə əlaqədardır. Respublikamız da uzunömürlülər diyarı hesab olunur.Səbəb kimi təmiz su, hava, qidalanma və sosial amillər göstərilir. Xarici ölkə alimləri respublikamızda uzunömürlüyün səbəblərini öyrənməyə çalışmış, çoxlu sayda elmi araşdırmalar aparmışlar. Dünyada və respublikamızda uzunömürlüklə əlaqədar olan elmi araşdırmalarla tanış olanda məlum olur ki, alimlərin bununla əlaqədar olan çox müxtəlif fikirləri vardır.

Bəzi alimlər qocalığın qarşısını almağın mümkün olmadığını qeyd edirlər. Bəziləri ölümün qarşısını gələcəkdə almağın mümkünlüyünü söyləyirlər. Hətta bəzi alimlər getdikcə insan ömrünün qısalacağını qeyd edirlər. Mənim bu mövzuda yazı hazırlamağımın səbəbi bir-birindən çox fərqlənən elmi araşdırmaların mövcud olmasıdır. Həmin elmi araşdırmaları diqqətlə öyrənsək, məlum olar ki, onlar bir-birini

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

ya təsdiq, ya da inkar edir. Ona görə də mənə məlum olanların çox kiçik hissəsini hörmətli oxucularla bölüşmək istəyirəm.

Məlumdur ki, insan Yer üzərində yeganə canlı varlıqdır ki, şüurludur, bütün iqlim qurşaqlarında yaşayır, ən müxtəlif qidalarla qidalanır və başqaları.Sual meydana çıxır. Necə olur ki, insan 200-300 il, və ya daha çox yaşaya bilmir?Nə üçün insan orqanizmində təqribən 27-30 yaşdan sonra inkişaf tədricən dayanmağa başlayır? Çoxlu suallar meydana çıxır, hamısını qeyd etmək fikrindən uzağam. Lakin qısa da olsa, cavabların bir neçəsini izah etməyə çalışacağam.

Məsələ burasındadır ki, biz Kainatın genişlənən sistemində yaşayırıq. Bu sistemdə insan zəkasının dərk edə bildiyi nə varsa, bütün varlıqlar dəyişməli, məhv olmalı və qaz halına keçməlidir. Çünki, genişlənmə qüvvəsinin və enerjisinin təsirindən kənarda heç nə qala bilməz. Bütün canlı orqanizmlərin yaranması, inkişafı və məhv olması bu qüvvələrin təsiri altında baş verir. Qeyri-üzvi və üzvi aləmdə nə varsa, hamısı məhv olmalı, qaz halına keçmə ilə nəticələnməlidir. Bu qanundan kənarda heç nə qala bilməz. İnsan orqanizmidə üzvi ailəmin kiçik bir hissəsidir. Genişlənmə qüvvəsinin təsiri altında meydana gəlir. Bir müddət bütün təsirlərə üstün gələrək inkişaf edir.

Biz insan orqanizmində inkişafın bütün mərhələlərini izləyə və müşahidə edə bilirik. Lakin, orqanizmimizdə atom və molekulyar səviyyədə olan təsirləri heç vaxt hiss edə və ya dərk edə bilmirik.

Halbuki, atom və molekulyar səviyyədə orqanizmimizdə inkişafla yanaşı çox ciddi dəyişikliklər baş verir. Bu dəyişikliklər tədricən insanın qocalmasına səbəb olur. Yenə sual meydana çıxır. Necə olur ki, Yer üzərində elə canlılar vardır ki, 300 ildən çox yaşayır?

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

Genişlənmə qüvvəsi ilk növbədə insan orqanizmində qazlar mübadiləsinə təsir göstərir. Ağ ciyərlərdə və toxumalarda karbon qazının verilməsi zəifləyir. Eritrositlərin oksigen daşıması tədricən çətinləşir. Nəticədə, bütün hüceyrələrdə bioloji proseslər pozulmağa başlayır. Bütün bunlar insanın qocalmasına, xəstəliklərə və ölümlə nəticələnməyə səbəb olur. Bu zaman mühit, qidalanma, orqanizmin fərdi xüsusiyyətləri qismən rol oynayır. Əsas səbəb genişlənmə qüvvəsidir.

Dəqiqliklə müəyyən etmişəm ki, elə kimyəvi element atomları vardır ki, insan orqanizminə təsir göstərən genişlənmə qüvvəsinin təsirini təqribən 40-50 % azaldır. Belə insanlar uzun müddət qocalmır. Onların 150 ildən artıq ömür sürməsi mümkündür. Həmin elementlər kobalt, sink, maqnezium və başqaelementlərdir. Lakin nəzərə almalıyıq ki, orqanizmdə həmin element atomlarının miqdarının çox olması əsas şərt deyil. Əsas şərt orqanizmin fərdi xüsusiyyəti və həmin element atomların hansı birləşmədə mövcud olmasıdır. Əgər insan orqanizminə təsir göstərən genişlənmə qüvvəsinin təsirini 10.15% azaltmaq mümkün olarsa, qocalmanın qarşısını 50 il azaltmaq olar.Yer üzərində bütün canlı orqanizmlərin fərqli ömür sürməsi yuxarıda qeyd etdiyim amillərlə əlaqədardır.Elə bitkilər vardır ki, cəmi bir neçə gün yaşayır. Elə ağaclar vardır ki, adlarını qeyd edib, izahat vermək mövzudan uzaqlaşmaq demək olardı.Orqanizmdə baş verən ən ağır xəstəliklər genişlənmə qüvvəsinin təsiri ilə baş verir. İnsan orqanizmində xəstəlik baş verməmişdən əvvəl dəqiq müayinə aparmaqla xəstəliyin baş verməsinin qarşısını almaq mümkündür. Lakin, bu çox mürəkkəb və çətin prosesdir.

Dəqiq müayinə ilə hər hansı insan orqanizmində qocalmanın nə vaxt başlaya biləcəyini də müəyyən etmək olar. Məsələ burasındadır ki,genişlənmə qüvvəsinin təsiri ilə ayrı-ayrı orqanlarda müşahidə edilməsi mümkün olan yeni

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

əlamətlər meydana çıxır. Həmin əlamətlər qocalmanın hansı yaş dövrlərində baş verəcəyi haqqında məlumatlar verir.

Bir məsələni qeyd etmək vacibdir ki, genişlənmə qüvvəsinin təsiri getdikcə güclənir. Bu da insanların vaxtından əvvəl qocalmasına səbəb olur. Əvvəllər insanlar qocalığı 50-55 yaşdan sonra hiss edirdilər. Hazırda bu rəqəm 25 yaşa düşmüşdür. Ən dəhşətlisi odur ki, insanların vaxtından əvvəl qocalması ilə yanaşı onların şüursuz davranışları meydana çıxır. Bu isə çox ağır nəticələrə səbəb olur. Bəzi xarici ölkələrdə bu proses zaman keçdikcə çoxalır. Ciddi hadisələrin baş verməməsi üçün çox vacib tədbirlər həyata keçirilməlidir.

**Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans**
**9 fevral 2024 / 65-70**
**Fundamentals of Science and Education VI International Scientific Conference**
**9 february 2024 / 65-70**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

**Sadig HAMIDOV**
AzerEnergy OJSC
Graduate School of Sciences, Industrial Engineering Department,
Üsküdar University, Turkey
Graduate Student
sadig.hamidov@st.uskudar.edu.tr;
sadighamidov6@gmail.com
**Mehmet SAVSAR**
Industrial Engineering Department, Faculty of Engineering & Natural Sciences,
Üsküdar University, Turkey
Prof. Dr.
mehmet.savsar@uskudar.edu.tr;msavsar@gmail.com

# CAPACITY AND AVAILABILITY ANALYSIS OF RENEWABLE ENERGY RESOURCES IN AZERBAIJAN

***Açar sözlər:*** *enerji, bərpa olunan enerji, electricity production, electricity in Azerbaijan, enerjinin proqnozlaşdırılması*

***Keywords:*** *Energy, Renewable Energy, Electricity Production, Electricity in Azerbaijan, Forecasting of Energy*

Today all countries in the world are trying to transform their energy production from conventional methods to renewable forms. Azerbaijan is also implementing several projects and planning for such a conversion. In this paper, we

have investigated the total energy output in Azerbaijan and the renewable energy sources which are being considered. Data for the past 10 years are obtained, and a forecasting model is applied to determine the potential future output. The results of this study can guide the government and private sector for future planning and decision making.

Azerbaijan exploited its oil and gas resources to power its people and export the rest to make money. Azerbaijan Statistics 2020 reports that crude oil accounts for 68.7% of primary energy output, natural gas 30.8%, and renewable energy 0.5%. However, states have studied measures to boost national renewable energy installation and address gaps in infrastructure implementation. Azerbaijan is also working to minimize greenhouse gas emissions and promote renewable energy (Mammadova, 2024). Government and the private sector is involved in extensive project developments and possible renewable energy production.

Tabe 1 shows different sources of electrical energy and the total energy output in the last column for Azerbaijan during the period 2013-2022. As it is seen in the table, there is an increasing trend in renewable energy production with the exception of hydro power production. Hydro energy production is somewhat stagnant or decreasing in some years due to reduction in water resources, climate change and possible system problems. We have concentrated on solar, wind and biomass energy production.

Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans
9 fevral 2024 / 65-70
Fundamentals of Science and Education VI International Scientific Conference
9 february 2024 / 65-70
DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

**Table 1. The renewable electricity production of Azerbaijan in the years 2013-2022, (*Energies* 2022).**

| Years | Wind | Solar | Biomass | Total/ mln kWtt/h |
|---|---|---|---|---|
| 2013 | 1 | 1 | 134 | 136 |
| 2014 | 2 | 3 | 174 | 179 |
| 2015 | 5 | 5 | 182 | 192 |
| 2016 | 23 | 35 | 175 | 233 |
| 2017 | 22 | 37 | 170 | 229 |
| 2018 | 83 | 39 | 162 | 284 |
| 2019 | 105 | 44 | 196 | 345 |
| 2020 | 95 | 47 | 201 | 343 |
| 2021 | 91 | 55 | 193 | 339 |
| 2022 | 83 | 61 | 205 | 349 |

**Forecasting of Renewable Electrical Energy Output by Regression Analysis.**

Three renewable energy sources and related output have been showing an increased trend over the past 13 years since the Azerbaijan Government as well as the private sector is

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

putting efforts to plan and implement several projects for these types of energy sources, which include Solar, Wind and Biomass sources. Figure 1 shows the trend for these three types of energy output over the past 13 years individually and in total.




**Figure 1. Azerbaijan's renewable energy production in 2013-2022, (Hesabat 2022).**

In order to estimate the future output for these energy sources, a linear regression model is developed and applied to the data to estimate the future output for the next 8 years based on the provided data. Linear regression is used to forecast the future power output for the next 8 months. Linear regression is based on the linear model y=mx+b that best fits the given data. Here, m=slope, b=intercept, x=years and y=power output. m and b have to be estimated based on the trend in the past data using the following equations.

**Elm və Təhsilin Əsasları VI Beynəlxalq Elmi Konfrans**
**9 fevral 2024 / 65-70**
**Fundamentals of Science and Education VI International Scientific Conference**
**9 february 2024 / 65-70**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI**

$$m = \frac{n(\sum xy) - (\sum x)(\sum y)}{n(\sum x^2) - (\sum x)^2}$$

$$b = \frac{\sum y - m(\sum x)}{n}$$

In this equation n is the number of data points, x represents the years and y is the power output production based on the slope m and intercept b. After m and b are determined from the equations above based on the past data, the equation y=mx+b can be used to predict the power production, y, for future years, x. Data for the past 13 years have been summarized in Table 1, as well as in Figure 1. Figure 2 shows the forecasted power output for the next 8 years (2023-2030) for total renewable energy, including solar, wind and biomass energies.




**Figure 2. Estimated analysis of electricity to be produced from renewable energy sources in Azerbaijan for 2023-2030.**

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VI

Energy production is vital in any country's economy. Today, many countries are putting efforts to increase their energy output, specifically from the renewable energy sources. Azerbaijan has been one of the countries, where renewable energy has been a priority in new energy investment plans. Solar energy is a promising area in the country. In this paper, we have analyzed past 13 years data on energy output and tried to forecast possible energy output from the renewable energy sources. The forecast shows an increasing trend with a relatively significant increase in the trend. The results can be guide for the government and the private energy sector to foresee the future and make correct plans and decisions.

## References

1. Mammadova 2024, L. BP, Azerbaijani Energy Ministry Sign MoU on Renewable Energy Available, online: https://www.azernews.az/oil_and_gas/142844.html.
2. *Energies* 2022, https://www.mdpi.com/1996-1073/15/2/401, https://doi.org/10.3390/en15020401.
3. Hesabat 2022, Azərbaycan Energetika Nazirliyi, https://minenergy.gov.az/uploads/Hesabatlar/son%20son-Hesabat%20NK%202022_v7.pdf.

# İÇİNDƏKİLƏR

**Könül Mədədzadə**
Azərbaycanda regionların sosial-iqtisadi inkişafına ümumi baxış (2009-2013-cü illər) ............................................6
**Sevinc Sadıqova**
Azərbaycan dilinin qloballaşma şəraitində inkişafına dair dövlət siyasətinin Qərbi Azərbaycan şivələrinin tədqiqində rolu .....................................................................10
**Sevda İsmayılova**
1930-cu illərin repressiyaları və ali məktəb tələbələri ............15
**Zəhra Seyidqızı**
Ana dilim ..............................................................................19
**Təhminə Ataşlı**
XI-XIV əsr mənbələrində oğuzlara aid edilən sözlər Azərbaycan və türk dillərində .....................................24
**Ayşən Qasımova – Mustafayeva**
Qədim türk mənbələrində leksik paralelizm və Ramiz Rövşənin nəsr dilində onların poetik mənzərəsi ..........28
**Aysel Abdullayeva**
Dilimizdə məkan anlayışının leksik vasitələrlə ifadəsi ...........32
**Nişan Nuriyeva**
Feminist terapiya: kişi və qadın bərabərsizliyi ......................34
**Pəri Nağızadə**
Pozitiv psixologiyanın pozitiv təhsilin inkişafına təsiri ..........38
**Rasim Vəlili**
Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan ədəbiyyatına təsiri ...............................................................................43
**Teybə Xəlilova**
Gənclik dövrünün xüsusiyyətləri ..........................................46

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Aytəkin Ağayeva, Dünya Babanlı**
EHQ üsulunun CdSb birləşməsinin termodinamik xassələrinin tədqiqinə tətbiqi ....................................................50
**Sevinc Musayeva, Dursun Əliyeva, Günel Ağazadə**
Müxtəlif ploidli buğda nümunələrinin fenoloji markerlərlə qiymətləndirilməsi ..............................................54
**Tahə İbrahimov**
Zəlzələlərin baş verməsinə səbəb nədir? .................................57
**Tahə İbrahimov**
İnsanın qocalmasına səbəb nədir? ..........................................61

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

**Sadig HAMIDOV , Mehmet SAVSAR**
Capacity and availability analysis of renewable energy resources in Azerbaijan ..............................................65

İmzalandı: 06.02.2024
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 4,75 ç.v.
Sifariş: 722

www.aem.az saytında çap olunub
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az